

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 14 (754) ▪ 15 aprel 2015 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycan iqtisadiyyatının dinamik inkişafı təmin olunub

*Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.*



İclasda giriş nitqi söyləyən dövlətimizin başçısı cari ilin birinci rübünün yekunlarını müsbət hesab etdiyini, Azərbaycan iqtisadiyyatının dinamik inkişafının təmin edildiyini bildirib: «Bu ilin birinci rübündə də bu müsbət meyillər davam edib. Mən keçən ilin sonunda əmin olduğumu bildirmişdim ki, 2015-ci il də ölkə iqtisadiyyatı üçün uğurlu il olacaq. Birinci rübün yekunları bu sözləri təsdiqləyir. Ümumi daxili məhsul 5 faizdən çox artmışdır. Bu, çox gözəl göstəricidir, həm region, həm dünya üçün. Bu gün dünyada 5,3 faiz, yaxud da ki, 6 faizə yaxın inkişaf edən iqtisadiyyatlar çox azdır».

Azərbaycan Prezidenti 2015-ci ilin ilk 3 ayında qeyri-neft sektorunun 7 faiz artdığını, bunun son illər ərzində aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində mümkün olduğunu diqqətə çatdırıb: «Uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyatımız dayanıqlı surətdə inkişaf etsin, bir sektordan - neft-qaz sektorundan asılı olmasın. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi bizim ümumi iqtisadi inkişafımıza təsir etməmişdir. Budur, Azərbaycanın iqtisadi modelinin unikallığı və bu göstəricilər bizim seçdiyimiz yolun nə qədər düzgün olmasını bir daha göstərir. Qeyri-neft sektoru prioritet olaraq qalacaq. Çünki bundan sonra Azərbaycan iqtisadiyyatı çoxşaxəli surətdə inkişaf edəcəkdir. Şadam, artıq bir müddətdir ki, qeyri-neft sektorumuz ümumi daxili məhsulumuzun əksər hissəsini təşkil edir. Əminəm ki, bu faiz nisbəti getdikcə daha da artacaq və beləliklə, bundan sonra Azərbaycan iqtisadiyyatı neft-qaz amilindən daha da az asılı olacaq. Bir daha demək istəyirəm ki, neftin qiymətinin iki dəfədən çox düşməsi bizim ümumi dinamik inkişafımıza təsir etməmişdir, qeyri-neft sektoru əsas iqtisadi yükü öz üzərinə götürmüşdür. Bundan sonra məhz qeyri-neft sektorumuzun inkişafı ölkəmizin uğurlu iqtisadi inkişafını təmin edəcəkdir».

Dövlətimizin başçısı hesabat dövründə sənaye istehsalında 4 faiz artım müşahidə edildiyini vurğulayıb: «Keçən il Azərbaycanda «Sənaye ili» elan edilmişdir, bu sahəyə xüsusi diqqət göstərilmişdir. Ondan əvvəlki illərdə müasir sənaye komplekslərinin, texnoparkların yaradılması, kiçik və orta sahibkarlığın inkişafı sayəsində sənaye potensialımız böyük dərəcədə güclənmişdir. Bunun nəticəsidir ki, Azərbaycanda sənaye istehsalı artır».

Prezident İlham Əliyev birincü rübdə kənd təsərrüfatında 3 faizdən çox artm olduğunu, inflyasiyanın 2,8 faiz təşkil etdiyini, əhalinin pul gəlirlərinin 5,3 faiz olduğunu və inflyasiyanı iki dəfə üstələdiyini də diqqətə çatdırıb.

Regionlarda müsbət meyillər müşahidə olunduğunu qeyd edən dövlətimizin başçısı bu dövrdə 30 minə yaxın iş yeri açıldığını, onlardan 25 mininin daimi olduğu bildirib, eyni zamanda sosial məsələlərin həll edildiyini vurğulayıb: «Sosial siyasətimizin digər aspektləri də daim diqqət mərkəzindədir. Sosial sahə insanların rifah halını, rahat yaşamasını təmin edən sahədir. Ona görə Azərbaycan dövləti bu sahəni daim diqqət mərkəzində saxlayır. Təbii ki, bizim gəlirlərimiz azalıb. Çünki neftin satışından əldə edilən gəlirlər təbii olaraq azalır. Ancaq əvvəlki illərdə əldə edilmiş maliyyə resursları, eyni zamanda, düşünülmüş siyasət, qeyri-neft sektorunun inkişafı və xarici investisiyaların cəlb edilməsi bizə imkan verir ki, hətta azalan gəlirlərlə bütün sosial öhdəlikləri yerinə yetirək və ölkə üçün vacib olan infrastruktur layihələrini icra edək».

Azərbaycan Prezidenti ölkəmizdə aparılan islahatların beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirildiyini, Dünya İqtisadi Forumunun rəqabətqabiliyyətlilik üzrə hesabatında Azərbaycanın 38-ci yerə layiq görüldüyünü diqqətə çatdırıb. Dövlət başçısının sözlərinə görə, birinci rübdə enerji sektorunda iki önəmli hadisə baş verib: «Fevralın 12-də «Cənub» Qaz Dəhlizi Məşvərət Şurasının birinci iclası bizim təşəbbüsümüzlə Bakıda keçirilmişdir. Bu toplantıda «Cənub» qaz dəhlizinin bizimlə əməkdaşlıq edən bütün mövcud və gələcək üzvləri iştirak edirdi. Mətbuata verilən yekun bəyanat da çox müsbət idi, orada Azərbaycanın liderlik rolu qeyd edilib. Mart ayında Türkiyənin Qars şəhərində TANAP layihəsinin təməl daşı qoyulmuşdur. Bu hadisə əlbəttə ki, dünya birliyinin diqqətini cəlb etdi. TANAP layihəsi «Cənub» qaz dəhlizinin tərkib hissəsidir. Bildiyiniz kimi, «Cənub» qaz dəhlizi 4 hissədən ibarətdir, TANAP onun önəmli hissəsidir. Azərbaycan TANAP layihəsinin icrasında əsas, yəni, səhmdar kimi fəaliyyət göstərir. Artıq işlər başlayır və hesab edirəm ki, Azərbaycan qazı -»Şahdəniz-2»dən çıxarılacaq qaz 2018-ci ildə Türkiyəyə çatdırılacaqdır. TAP layihəsi də icra edilməlidir. Hesab edirəm ki, TAP layihəsinin icrası üçün bəzi hallarda yaradılan süni maneələr aradan qaldırılacaq və Avropa ölkələri, bu layihədə iştirak edən ölkələr və Avropa İttifaqı bu məsələləri özləri həll edəcəkdir».

Sonra vergilər naziri Fazil Məmmədov çıxış edib: «Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş sosial-iqtisadi inkişaf kursunun, möhtərəm cənab Prezident, Sizin tərəfinizdən inamla davam etdirilməsi ilə 2015-ci ilin birinci rübündə də ölkəmizin sosial-iqtisadi inkişafı davam edib, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli irəliləyişlərə nail olunmuş, əhalinin rifah halının daha da yüksəldilməsi təmin edilib. Dünyada neftin qiymətinin kəskin aşağı düşməsi müəyyən çətinliklər yaratsa da, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən uğurlu islahatlar ölkəmizin dayanıqlı inkişafını təmin edərək, real büdcə öhdəliklərinin tam həcmdə yerinə yetirilməsinə imkan verib. Bu da respublikada iqtisadi sahədə həyata keçirilən siyasətin kifayət qədər praqmatik olduğunu və reallıqlara əsaslandığını, detallarına qədər uzaqgörənliklə düşünüldüyünü bir daha təsdiq edir. Məhz bunun nəticəsidir ki, son illərdə ölkədə iqtisadi artım əsasən qeyri-neft sektorunun inkişafı hesabına təmin olunub».

Vergilər naziri Fazil Məmmədov ilin birinci rübündə ölkənin sosial-iqtisadi inkişafı istiqamətində görülmüş işlər barədə məlumat verib.

İclacda nəqliyyat naziri Ziya Məmmədov və mədəniyyət və turizm naziri Əbülfəs Qarayev də çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevda yekun nitq söyləyib. Bildirilib ki, ilin sonuna kimi olkədə iqtisadi yüksəlişin davam etdirilməsi, xüsusilə qeyri-neft sektorunun daha da inkişafı məqsədilə əlavə tədbirlər görülməlidir. Sahibkarlığa dövlət dəstəyi artırılmalı, rəqabətqabiliyyətli məhsul istehsalına və qiymət bazarına nəzarət gücləndirilməlidir. Regionlarda sənaye müəssisələri yaradılmalı və «Kənd təsərrüfatı» ili çərçivəsində aqrar layihələr həyata keçirilməli,aqroparklar və iri fermer təsərrüfatlarının fəaliyyəti genişləndirilməidir.

## Prezident İlham Əliyev cənub bölgəsinə səfər edib

*Aprelin 11-də Azərbaycan Prezidenti İlham Əliyev Astara rayonuna səfər edib. Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Astara şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.*

Həmin gün Prezident İlham Əliyev «Astaraçay» MMC-nin çay emalı fabrikində yaradılan şəraitlə tanış olub. Dövlətimizin başçısına məlumat verilib ki, Astaraçay» kənd təsərrüfatı müəssisəsi 2010-cu ildə yaradılıb. Təsərrüfatın ümumi əkin sahəsi 640 hektardır. Çay plantasiyalarında müasir suvarma şəbəkəsi yaradılıb və hazırda təsərrüfatda 400 hektara yaxın çay sahəsi mövcuddur. Burada Koreya Respublikası şirkətinin layihəsi əsasında çay fabriki inşa edilib. Ərazisi 5 hektar olan fabrikdə xaricdən gətirilən ən müasir avadanlıq quraşdırılıb. Müəssisənin məhsuldarlığı gün ərzində 12 tondur. Gələcəkdə gündəlik çay istehsalını 24 tona çatdırmaq mümkündür. Çay fabriki ilə tanışlıqdan sonra Prezident İlham Əliyev müəssisənin kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Azərbaycanda belə gözəl müəssisənin yaradılmasından məmnunluğunu ifadə edib.

Sonra Prezident İlham Əliyev Astaranın dənizkənarı park-bulvar kompleksində yaradılan şəraitlə tanış olub, Deqədi-Pəlikəş avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Prezidenti Astara rayonuna səfərini başa çatdıraraq həmin gün Lənkəran şəhərinə gəlib. Şəhərin mərkəzindəki Heydər Əliyev Xatirə Parkında ulu öndərin abidəsini ziyarət edən Prezident İlham Əliyev Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi və yenidən qurulan Mədəniyyət Mərkəzində yaradılan şəraitlə tanış olub, şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Dövlətimizin başçısı Lənkəranda yeni inşa olunan körpələr evi-uşaq bağçasının açılışında iştirak edib, «Gilan aqro-sitrus» təsərrüfatı ilə də tanış olub. Məlumat verilib ki, yeni sitrus təsərrüfatının ümumi sahəsi 45 hektardır. Hazırda 15 hektar sahədə «Gilan aqro» şirkəti tərəfindən Cənubi Koreyadan gətirilən 20 min ədəd «Hallabong» sitrus meyvəsinin ağacları əkilib.



Dövlətimizin başçısı Lənkərana səfəri çərçivəsində Liman-Nərimanabad-Balıqçılar avtomobil yolu ilə də tanış olub.

## Serbiyanın Baş naziri Azərbaycana gəlib

*Aprelin 14-də Serbiya Respublikasının Baş naziri Aleksandr Vuçiç Azərbaycana rəsmi səfərə gəlib. Hava limanında ali qonağı Azərbaycanın dövlət və hökumət nümayəndələri qarşılayıblar.*

Həmin gün Fəxri xiyabana gələn Serbiyanın Baş naziri ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, önünə əklil qoyub.Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Aleksandr Vuçiç, həmçinin, Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla yad edib, «Əbədi məşəl» abidəsinin önünə əklil qoyub.

Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Respublikasının Baş naziri Aleksandr Vuçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Serbiyanın Baş naziri ilə Münxendəki görüşünü və tərəfdaşlığımızın inkişaf etdirilməsi ilə bağlı apardıqları səmərəli müzakirələri məmnunluqla xatırlayıb, bu səfərin hər iki ölkə üçün uğurlu olacağına əminliyini ifadə edib.

Aleksandr Vuçiç ölkəsinin Azərbaycan ilə əlaqələri siyasi sahədəki kimi, iqtisadi sahədə də genişləndirməkdə maraqlı olduğunu diqqətə çatdırıb. Mövcud siyasi əlaqələrin və qarşılıqlı anlaşmanın ikitərəfli əlaqələrin genişləndirilməsi işinə töhfə verdiyi qeyd olunub. Əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən enerji, infrastruktur, sərmayə qoyuluşu, yükdaşımaları, mədəni, humanitar və digər sahələrdə perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə, həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə toxunularaq münaqişələrin beynəlxalq hüquq normalarına uyğun şəkildə və ərazi bütövlüyü çərçivəsində həll olunmasında ölkələrimizin mövqeyinin üst-üstə düşdüyü vurğulanıb.

2 Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınıb

3 Sahibkarların doğma ünvanı

4 İstehlakçı hüquqları ilə bağlı qanunvericilik bazası təkmilləşdirilir

5 Nağdsız hesablaşmalarla bağlı tədbirlər görülür

# Vergilər Nazirliyinin Çağrı Mərkəzinə daxil olmuş müraciətlər

2015-ci ilin mart ayında Vergilər Nazirliyinin Çağrı Mərkəzinə daxil olmuş 13713 zəng üzrə canlı əlaqə zamanı 14018 müraciət cavablandırılmışdır. Vergi ödəyiciləri 1639 dəfə vergi borcu, 1025 dəfə isə vergi növləri barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə etmiş, onlara 24203, o cümlədən 22943 qısa və 1260 ikitərəfli mesaj göndərilmişdir.

Ay ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 290272 daxilolma qeydə alınmışdır.

# Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınıb

*Bakı Vergilər Departamentinin Bəyannamələr və vergi borclarının alınması idarəsinin əməkdaşları tərəfindən paytaxtın müxtəlif rayonlarında fəaliyyət göstərən bir neçə borclu vergi ödəyicisində əmlakın siyahıya alınması tədbirləri keçirilmişdir.*

Nizami rayonunun Keşlə qəsəbəsində Rafiq Əsgər oğlu Rzayevə məxsus «Əbülfət» ərzaq və təsərrüfat mağazasının fəaliyyəti araşdırılarkən 41 min 766 manat, Binəqədi rayonundakı «Təbib» LTD-yə məxsus topdansatış obyektinin fəaliyyəti araşdırılarkən isə 151 min 432 manat vergi borcunun yarandığı müəyyən edilmişdir.

Vergi ödəyicilərinə borcun ödənilməsi barədə bildiriş göndərilsə də, borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilmədiyindən, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, vergi borcunun ödənilməsini təmin etmək məqsədilə əmlakın siyahıya alınması haqqında qərar çıxarılmış, adları çəkilən obyektlərdəki əmlak müvafiq qaydada siyahıya alınmışdır.

# Vergitutma bazasının aşınması aktual problemlərdəndir

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən Transfer Qiymətləri üzrə Qlobal Forum ilə Vergi və İnkişaf məsələləri üzrə işçi qrupunun Paris şəhərində keçirilmiş iclası vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi (BEPS), eləcə də inkişaf etməkdə olan ölkələrdə vergi sistemi mövzularına həsr olunmuşdur. İclasda 90-dan çox ölkənin nümayəndələri iştirak etmişlər.

Tədbir müddətində nümayəndələrin təcrübələri və Transfer Qiymətləri üzrə BEPS sahəsində görülmüş işlərin praktiki nəticələri əsas maraq mərkəzində olmuşdur.

İclasda ölkəmizi Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin əməkdaşı Zümrüd İsayeva təmsil etmişdir.

# Vergi münasibətlərində KİV-in rolu müzakirə edilib

*Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) təşəbbüsü ilə Macarıstanın paytaxtı Budapeşt şəhərində «Vergi ödəyiciləri ilə vergi orqanları arasında etimadın möhkəmləndirilməsində kütləvi informasiya vasitələrinin rolu» mövzusunda seminar keçirilmişdir.*

Seminarda media şirkətləri üçün keçirilən təlimlər, vergi orqanlarına münasibətin formalaşmasında medianın rolu, media nümayəndələri ilə məlumat mübadiləsi zamanı ortaya çıxan çətinliklər haqqında təqdimatlar edilmişdir.

Tədbir zamanı İngiltərə, İsveçrə, Lüksemburq və bir sıra digər ölkələrdə gözdən əlil insanların mediadan bəhrələnməsi üçün vergi administrasiyalarının internet səhifələrində və elektron xidmətlərində xüsusi imkanların yaradılması, Azərbaycan təcrübəsinə əsaslanaraq Moldovada vergi sahəsində uşaqlarla aparılan təbliğat işləri, bir sıra vergi administrasiyalarında, xüsusilə Rusiyada dövri media planlarının hazırlandığı və plana uyğun olaraq müxtəlif media kanallarında tədbirlərin keçirilməsi, könüllülük prinsipi ilə ölkənin regionları üzrə ən çox vergi ödəyən vergi ödəyicilərinin media vasitəsilə tanıdılması, internet səhifələrinin daha əlverişli olması üçün təhlillər əsasında mütəmadi qaydada yenidən dizayn olunması, həmçinin bütün dövlət orqanlarının vahid dizaynda internet səhifələri tərtib etməsi kimi layihələr barədə müzakirələr aparılmışdır.

Azərbaycan Respublikasının Vergilər Nazirliyinin bu sahədəki təcrübəsi, eləcə də «Face vizit», «Onlayn müfəttiş», «İqtisadi zona», «Vergi dostları» kimi layihələr iştirakçıların marağına səbəb olmuşdur.

Seminarda Vergilər Nazirliyini Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəis müavini Məhəmməd Yunusov təmsil etmişdir.

# Beynəlxalq Vergi İnformasiya Platforması

## interaktiv xəritə və məlumat bazası

*Qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və xarici ölkələrin vergi sistemlərinin müqayisəli təhlilinin aparılması məqsədilə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi tərəfindən hazırlanan Beynəlxalq Vergi İnformasiya Platforması (BVİP) istifadəyə verilib.*

də müvafiq ölkəni seçdikdən sonra sistem vasitəsilə həmin ölkəyə aid parametrlər üzrə xüsusi bölmə avtomatik açılır.

Məlumat üçün qeyd edək ki, xarici ölkələrin vergi sistemi vahid standartlar üzrə kompleks şəkildə tədqiq olunduğundan ölkələr üzrə məlumatlar bu bölmədə eyni meyar üzrə yerləşdirilmişdir.

tehsalına aid rəqəmlər əks olunub. Burada dövlət büdcəsinin gəlirləri və xərcləri, inflyasiya, işsizlik səviyyəsi, idxalın və ixracın ÜDM-ə nisbəti, xarici birbaşa investisiyalar göstərilir. Bunlarla yanaşı, bölmədə valyuta və qızıl ehtiyatları, dövlət borcunun ÜDM-ə nisbəti, minimum aylıq əməkhaqqı üzrə göstəricilər də yer alıb.

tiv xərclərin vergi daxilolmalarına nisbəti göstərilib.

***Vergi qanunvericiliyi***

BVİP-ə üç əsas vergi növü (mənfəət vergisi, ƏDV və fiziki şəxslərin gəlir vergisi) barədə müvafiq parametrlər: bu vergi növləri üzrə dərəcələr, güzəştlər, vergi ödəyiciləri, verginin ödənilmə müddəti və s. üz-




Platforma «Ölkələr üzrə məlumat», «Ölkələr üzrə müqayisə», «Beynəlxalq təşkilatlar», «Administrasiyalar», «Beynəlxalq vergi sazişləri», «Aİ qanunvericiliyi», «İnnovativ layihələr», «Əməkdaşlıq layihələri», «Beynəlxalq indekslər» və «Beynəlxalq tədbirlər» bölmələrindən ibarətdir.

Platformanın strukturu beynəxalq təcrübə üzrə analitik təhlil və müqayisənin aparılmasına imkan verən «məlumat bazası və müqayisə aləti»nin istifadəsinə imkan verən sistem üzərində qurulub. BVİP-in məlumat bazasına baş idarə tərəfindən tədqiq olunmuş 18 ölkənin, eləcə də Azərbaycanın vergi sisteminə dair məlumatlar daxil edilib.

BVİP-də xüsusi interaktiv xəritə vasitəsilə hər bir ölkəyə dair məlumat bazasına keçid əldə etmək mümkündür. Tədqiq olunan ölkələr bu xəritədə fərqli rənglərdə göstərilir. Xəritə-

«Ölkələr üzrə məlumatlar» bölməsinə ümumi məlumatlar, makroiqtisadi və vergilər üzrə göstəricilər, vergi administrasiyalarına dair məlumat, vergi qanunvericiliyi (mənfəət vergisi, ƏDV, fiziki şəxslərin gəlir vergisi, digər vergilər), vergi inzibatçılığı və Azərbaycanla əlaqələr barədə məlumatlar daxildir.

Platformada hər bir ölkə üzrə iqtisadi xəritələr, göstərilən müvafiq bölmələrə dair diaqram və qrafiklər əks olunub. Vizual görüntü ilə müşayiət olunan məlumatlar vergi əməkdaşlarında ölkələr haqqında daha dolğun və əyani təsəvvür formalaşmasına imkan verir.

***Makroiqtisadi göstəricilər***

«Ölkələr üzrə məlumatlar» bölməsinin «makroiqtisadi göstəricilər» təsnifatında ölkənin ÜDM-i, ÜDM-in real artımı, sektorlar üzrə bölgüsü, adambaşına düşən ÜDM, elektrik enerjisi is-

***Vergi statistikası***

Bu bölmədə müvafiq ölkə üzrə ümumi vergi daxilolmaları, daxilolmaların ÜDM-ə nisbəti, vergi ödəyicilərinin sayı (ƏDV ödəyicilərinin xüsusi çəkisi), vergi əməkdaşlarının sayı (qadınların xüsusi çəkisi) əks olunmuşdur. Müqayisəli məlumat kimi bölmədə hər vergi ödəyicisinə düşən ödənilmiş vergi, hər vergi işçisinə düşən vergi ödəyicilərinin sayı və daxilolamaların məbləği barədə göstəricilər də əks olunub.

***Vergi administrasiyaları üzrə məlumat***

Bu təsnifatda konkret ölkəyə aid vergi administrasiyası haqqında ümumi məlumat, administrasiyaya daxil olan departamentlər və yerli orqanlar, administrasiyanın institusional forması, administrasiya tərəfindən idarə olunan əsas vergilər, həyata keçirilən qeyri-vergi funksiyaları, eləcə də administra-

rə məlumatlar daxil edilib. «Digər vergilər» bölməsində isə ölkələrin sosial sığorta ayırmaları, daşınmaz əmlak vergisi, möhür vergisi barədə göstəricilərlə tanış olmaq mümkündür.

«Vergi inzibatçılığı barədə məlumat» təsnifatında ayrı-ayrı ölkələrdə göstərilən elektron xidmətlər barədə əyani təsəvvür yaradılır.

«Azərbaycanla əlaqələr barədə məlumatlar» bölməsində tədqiq olunmuş 18 ölkə ilə respublikamız arasında siyasi və iqtisadi əlaqələr, xarici ticarət dövriyyəsi, o cümlədən ixrac, Azərbaycandan ixracın həcmi, ümumi ixracda xüsusi çəkisi, idxal, Azərbaycana idxalın həcmi, bunun ümumi idxalda xüsusi çəkisi barədə məlumatları əldə etmək olar. Bu bölmədə müvafiq ölkə ilə Azərbaycan arasında vergilər sahəsində imzalanmış sazişlərin mətnləri ilə də tanış olmaq mümkündür.

**AYTƏN**

# Sahibkarların vergilərə dair məlumat əldə etmək imkanları genişlənir



Azərbaycan hökumətinin sahibkarlığın inkişafına dövlət dəstəyinin göstərilməsi, onların hüquqlarının qorunması istiqamətlərində həyata keçirdiyi ardıcıl siyasət nəticəsində sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması üçün mühüm addımlar atılıb, biznesə başlama prosedurları sadələşdirilib, qanunvericilik təkmilləşdirilib. Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin böyük qismi sahibkarlığın inkişafının stimullaşdırılmasına, onların hüquqlarının qorunmasına yönəlib.

Hazırda Vergilər Nazirliyi sahibkarların məlumatlandırılmasının gücləndirilməsi üçün elektron informasiya məkanından geniş istifadə edir. Vergilər barədə məlumat bazası genişləndirilir, vergi orqanları ilə vergi ödəyiciləri, həmçinin vətəndaşlar arasında interaktiv əlaqələrin əhatə dairəsi durmadan böyüyür. Bu gün vergi ödəyicilərinin www.taxes.gov.az internet saytı vasitəsilə vergilər naziri ilə birbaşa əlaqə yaratmaq, vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı və fəaliyyəti ilə əlaqədar, eləcə də saxtakarlıq və ya korrupsiya halları, vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntuları barədə ən yüksək instansiyalara müraciət etmək, video-qəbuldan yararlanmaq imkanları vardır. «Facebook» sosial şəbəkəsində nazirliyin Azərbaycanın vergi sisteminin təbliği ilə bağlı geniş məlumat bazası yerləşdirilib.

Dövlət qeydiyyatı ilə əlaqədar inzibati reqlamentlər, qeydiyyat üçün ərizə formaları və onların doldurulma qaydaları, təşkilati-hüquqi formasından asılı olaraq kommersiya qurumlarının nizamnamə və qərar formaları və s. hazırlanaraq Vergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilib ki, lazım olanda hər kəs bunlardan istifadə edə bilsin. Bunlardan əlavə, sahibkarların kommersiya hüquqi şəxs yaratmaq üçün hazırladıqları sənədlərin qeydiyyat orqanına gəlmədən yoxlanılması üçün saytda nazirliyin hüquqşünaslarının elektron ünvanları yerləşdirilib. Vergi əməkdaşları iş günü ərzində xidməti telefon və elektron poçt vasitəsilə müraciət etmiş şəxslərə ətraflı cavab verirlər.

Xatırladaq ki, hüquqi şəxs statusu almaq istəyən kommersiya qurumunun, o cümlədən xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və filialının dövlət qeydiyyatına alınma müddəti 3 gündən 2 günə, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınma müddəti sürətli elektron dövlət qeydiyyatı 3 gündən dərhala, adi elektron dövlət qeydiyyatı isə 3 gündən 1 günə qədər azaldılıb.

Vergi ödəyicisi və ya istənilən vətəndaş Vergilər Nazirliyinə müraciət ünvanladığı halda, ona 3 gün müddətində ilkin cavab məktubu göndərilir. Həmin məktubda müraciətin icraata qəbulu, ona hansı idarədə və ya şöbədə, hansı əməkdaş tərəfindən baxıldığı, həmin əməkdaşın əlaqə nömrələri öz əksini tapır. Beləliklə, vətəndaş öz müraciətinin icra vəziyyətinə nəzarət imkanı əldə edir. Bununla yanaşı, vergi ödəyiciləri onları narahat edən məsələlərlə bağlı «195» Çağrı Mərkəzindən günün 24 saatı ərzində məlumat ala bilirlər. Müraciətinə verilən ilk cavabdan razı qalmayan ödəyicinin Vergilər Nazirliyinə ünvanladığı təkrar müraciətinə isə Vergi Apelyasiya Şurasında baxılır və müvafiq qərar qəbul edilir.

**Vergilər Nazirliyi sahibkarların məlumatlandırılmasının gücləndirilməsi üçün elektron informasiya məkanından geniş istifadə edir**

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə mütəmadi olaraq regionlarda sahibkarlarla və sahibkarların ictimai təşkilatları ilə müxtəlif mövzularda görüşlər keçirilir, «dəyirmi masa»larda diskusiyalar təşkil olunur. Bu tədbirlər arasında vergi ödəyiciləri üçün keçirilən «Açıq qapı» günü daha səmərəli nəticələr verir.

İctimai təşkilatların nümayəndələrinin təmsil olunduğu «Vergi klubu»nun yaradılması da rəy və təkliflərin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bu tədbirlər çərçivəsində sahibkarlıq subyektlərinin fəaliyyətini stimullaşdırmaq, özəl istehsal sahələrinin inkişafı üçün münbit şərait yaratmaq, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək məqsədilə təkliflər irəli sürmək imkanları yaranır. Ölkədə sahibkarlığın inkişafında, azad rəqabətin gücləndirilməsində, stimullaşdırıcı addımların atılmasında, iqtisadi qanunların, o cümlədən vergi qanunvericiliyinin təkmilləşdirilməsində Vergilər Nazirliyi ilə ayrı-ayrı təşkilatların əməkdaşlığı mühüm nəticələr verir.

**Rəşad SADIQOV**

# Sahibkarların doğma ünvanı

## Vergilər Nazirliyinin təcrübəsi bəhrəsini verir

*Məlum olduğu kimi, 2015-ci il fevralın 4-dən Vergilər, Maliyyə, İqtisadiyyat və Sənaye, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərini, Dövlət Gömrük Komitəsini və Dövlət Sosial Müdafiə Fondunu əhatə edən Universal Çağrı Mərkəzi fəaliyyətə başlayıb. Mərkəz vətəndaşların vaxt itkisinə yol vermədən bir mənbədən biznesin qeydiyyatı, lisenziyalaşdırma, mühasibat uçotu, vergilər, rüsumlar, sosial və digər icbari ödənişlər barədə məlumat almalarını təmin etmək məqsədilə Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinin və ayrı-ayrı dövlət orqanlarındakı analoji xidmətlərin telefon məlumat xidmətinə inteqrasiya olunmaqla vahid xidmət funksiyasını daşıyır.*

Səhər saatları olsa da, burada bir canlanma, hərəkətlilik müşahidə edilir. Zəruri texniki avadanlıqların yerləşdiyi geniş otaqda çalışan operatorlar nəyisə gözləyirlərmiş kimi, diqqətlərini iş masasının üzərindəki telefondan çəkmirlər. Onlar üçün daxil olan aramsız zəngləri qəbul etmək, müraciət edənlərə tam razı salacaq tərzdə cavab vermək, meydana çıxan sualları təfərrüatlı, mümkün qədər sadə və anlaşılan şəkildə cavablandırmaq sanki bir vərdişə çevrilib.

Budur, növbəti zəng gəlir, mövzunun istiqamətinə uyğun cavab verilir. Bir az keçmiş daha bir zəng olur və bu proses günün sonuna kimi davam edir.

Bu, İqtisadiyyat və Sənaye Nazirliyinin (İSN) Çağrı Mərkəzinin iş fəaliyyətinin 30-40 dəqiqiəlik müddətdə rastlaşdığımız kiçik bir epizodudur. Təəssüratımıza əsasən demək olar ki, burada sakit oturub gözləmək müşkül məsələdir, bu otaqda iş gününün sonuna kimi canlı təmas hökm sürür. Müasir avadanlıqlar və sürətli kommunikasiya sistemi ilə təchiz edilmiş mərkəzdə vətəndaşlara sahibkarlığa dair zəruri məlumatların çatdırılması, bu sahədə müvafiq xidmətlərin göstərilməsi təmin olunub.

***«Bu strukturu yaradarkən Vergilər Nazirliyinin təcrübəsindən yararlandıq...»***

Çağrı Mərkəzinin rəhbəri Tarverdi Əliyev otağa daxil olur. Özünün ayrıca iş otağının olmasına baxmayaraq, günün xeyli hissəsini burada keçirdiyini deyir.

Həmsöhbətim bildirir ki, Azərbaycanda biznes mühitinin daha da liberallaşdırılması istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri də sahibkarların müvafiq dövlət qurumlarından məlumat əldə etmək imkanlarının asanlaşdırılmasıdır. Özəl sektorun təmsilçiləri ilə daha sıx təmasda olan, onlara müxtəlif xidmətlər göstərən nazirlik öz fəaliyyətində mütərəqqi yenilikləri nəzərə alır, informasiya-kommunikasiya texnologiyalarının ən son yeniliklərinin, o cümlədən «e-xidmətlər»in geniş tətbiqinə nail olmağa çalışırlar. Bu məqsədlə 2009-cu ildə İqtisadiyyat və Sənaye Nazirliyinin 195-2 Telefon Məlumat Mərkəzi yaradılıb. Mərkəzin təşkilində vergi xidməti orqanlarının özünü doğrultmuş uğurlu təcrübəsi mühüm rol oynayıb: «Bu strukturu yaradarkən Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinin təcrübəsindən istifadə etdik və «195-2» prefeksi ilə Mərkəzə qoşulduq. Münasib proqram təminatı və texniki infrastruktur qurduq. Az müddətdə sahibkarların doğma ünvanına çevrilməyi bacardıq və onlardan aldığımız sualların sayı artdı. Beləliklə, tədricən sahibkarlıq subyektlərinin böyük inam və etimadını qazandıq. 2015-ci ilin fevral ayından 7 dövlət qurumunu əhatə edən Universal 195 Çağrı Mərkəzinin fəaliyyətə başlaması isə ölkə sahibkarlarına göstərilən xidmətlərin keyfiyyət və çeşidinin artması baxımından əla fürsət oldu».

***Mərkəzdə gün ərzində 130 -135 müraciət cavablandırılır***

Tarverdi Əliyev deyir ki, İSN-in Çağrı Mərkəzinə 2009-cu ildən indiyədək 35 min müraciət olunub və hər ay artım müşahidə edilməkdədir. Məsələn, bu ilin mart ayında 2151 müraciət olunub. Mərkəz sahibkarların vaxt itkisinə yol vermədən vahid mənbədən məlumat almalarını təmin edir. Ölkənin istənilən yerindən stasionar və mobil telefonlardan məlumat mərkəzinə zəng etməklə nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciətlərə cavab almaq mümkündür.

Göstərilən xidmətlərin səviyyəsinin dəyərləndirilməsi üçün vətəndaşlara sorğuda iştirak etmək, rəy və təkliflərini bildirmək, eləcə də mərkəzin fəaliyyətində hansısa bir narazılıq olduğu təqdirdə, İSN-ə birbaşa müraciət etmək imkanı yaradılıb.

Hər gün səhər saat 9.00-dan axşam 18.00-dək canlı rejimdə müraciətlərin cavablandırıldığı Mərkəzə gün ərzində təxminən 134-135 zəng daxil olur. Altı operator tərəfindən cavablandırılan sualların təsnifatı və strukturu da maraq doğurur.

*Operator Əli Qarayev* deyir ki, istehlakçıların hüquqlarının müdafiəsi, antiinhisar qanunvericiliyi, sahibkarlığın inkişafı, lisenziya, xüsusi razılıq, icazələr, güzəştli kreditlər, əsasən də Sahibkarlığa Kömək Milli Fondu ilə bağlı müraciətlər üstünlük təşkil edir. Nazirliyin digər fəaliyyət sahələri ilə əlaqədar zənglərin də sayı az deyil. Ümumilikdə, ünvanlanan müraciətlərin 30%-ə yaxını istehlakçı hüquqları, sahibkarlıq subyektlərində keçirilən yoxlamalar barədə olur. Hər müraciətə təxminən 5-10 dəqiqə ərzində cavab verilir.

Öz işindən zövq aldığını gizlətməyən operator Həmzə Cəfərov isə bildirir ki, Mərkəz ölkəmizin biznes nüfuzunun yüksəlməsinə, sahibkarların müvafiq dövlət qurumlarına operativ müraciət ünvanlamaq və məlumat almaq imkanlarının genişlənməsinə şərait yaradır. Sahibkarlara müasir standartlara uyğun xidmət göstərmək məqsədilə mərkəzin fəaliyyətini daha da gücləndirmək üçün növbəti mərhələdə bütün müraciətlərin avtomatik rejimdə cavablandırılması nəzərdə tutulur.



***Bir sıra problemlərin həllində vətəndaşların fəallığı vacibdir***

*Operator Vüsal İsgəndərov* deyir ki, son günlər daxil olan zənglərin böyük hissəsi manatın devalvasiyasından sonra bəzi mağaza və satış məntəqələri tərəfindən süni qiymət artımı halları barədədir: «Vətəndaşlar bu məsələdə fəallıq göstərərək Çağrı Mərkəzinə müraciət etməklə nazirliyimizin süni qiymət artımına qarşı apardığı mübarizə tədbirlərinə kömək göstərmiş olurlar. Zənglərdən sonra nazirliyin müvafiq qurumlarının qeyd olunan satış məntəqəsində apardıqları yoxlamalar sayəsində əsassız qiymət artımına yol verən şəxslər barədə qanunvericiliyə uyğun tədbirlər görülür.

*Operator Nəmzə Cəfərovun* sözlərinə görə, müraciətlərdə istehlakçı hüquqlarının qorunması ilə bağlı məsələ xüsusi yer tutur: «Demək olar ki, hər 3-4 zəngdən biri ticarət və iaşə müəssisələrində, mağazalarda istehlakçı hüquqlarının pozulmasına aiddir. Bu sahə üzrə də müraciətlər fərqlidir. İstehlakçılardan istifadə müddəti ötmüş, keyfiyyətsiz malların satışı halları, alınmış malın geri qaytarılması zamanı yaranan çətinliklər və s. məqamlar barədə zənglər daha çox olur. Bu cür müraciətlərlə bağlı operativ tədbirlər görülür, qanun pozuntusuna yol vermiş şəxslər barəsində inzibati qaydada addımlar atılır».

***Mərkəzdə vergiyə aid suallar cavablandırılır***

*Operator Seyran Əliyev* bildirir ki, bəzən sahibkar kredit almaq istədiyini bildirir, şərtlər barədə məlumat alır, araşdırdıqda onun sahibkarlıq subyekti kimi qeydiyyatdan keçmədiyi məlum olur. Bu halda ona müvafiq vergi orqanına müraciət edərək qeydiyyatdan keçmək, uçota durmaq məsləhət görülür: «Müraciət edənlərdən vergi dərəcələrinin hesablanması, xüsusilə də ƏDV depoziti ilə bağlı məsələləri soruşanlar da çox olur. Bəzən vətəndaşların sualları vergiyə aid olur, məsələn, hansısa regionda fəaliyyət göstərən sahibkar vergi ilə bağlı nəzəri məsələlər üzrə müraciət edir. Bundan əlavə, praktiki məsələlər: bəyannamələrin doldurulması, elektron bəyannamə və digər suallar ortaya çıxanda onlara 195-1-i yığaraq vergi orqanı əməkdaşı ilə danışmaq məsləhət görülür».

*Operator Gülnarə Xubanova* deyir ki, son vaxtlar «ASAN imza» ilə əlaqədar müraciətlərin sayı artıb: «Bununla bağlı sualları cavablandırmaq Vergilər Nazirliyinin əməkdaşlarının səlahiyyətlərinə aid olsa da, lazımi bilgimiz olduğu üçün vətəndaşlara ətraflı məlumat verməyi özümüzə borc bilirik».

***Müraciət edən də məmnundur, cavab verən də...***

Çağrı Mərkəzinin əməkdaşları müraciət edənlərin əksəriyyətinin verilən cavablardan razı qaldıqlarını, minnətdarlıq etdiklərini bildirirlər. G.Xubanova deyir ki, hər gün onlarla vətəndaşa cavab veririk: iqtisadi bilikləri kifayət qədər normal olan insanlar da var, həyata keçirilən islahatları, baş verən yenilikləri lazımınca anlamayanlar da: «Çalışırıq ki, hər kəsi qane edəcək səviyyədə başa salaq. Çünki onların məmnunluğu bizim də məmnunluğumuzdur».

Yeri gəlmişkən, zəng edən vətəndaşların əksəriyyəti 7 dövlət qurumunun inteqrasiya olunduğu Universal Çağrı Mərkəzinin fəaliyyətini yüksək qiymətləndirirlər. Mərkəzin rəhbəri T.Əliyevin sözlərinə görə, bu layihə sahibkarlara xidmət baxımından ən mütərəqqi model hesab edilir: «Mərkəzin sahibkarlara göstərilən dövlət dəstəyinin səmərəliliyinin artırılması, dövlət və sahibkarlar arasında münasibətlərin yaxşılaşdırılması və sadələşdirilməsi, fiziki və hüquqi şəxslərin vahid mənbədən məlumat almalarının təmin olunması, əhali arasında hüquqi maarifləndirilmə işinin səviyyəsinin yüksəldilməsi baxımından rolu çox yüksəkdir».

**Elbrus CƏFƏRLİ**






Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi sistemində aparılan islahatlar və ekspert təhlilləri

Dövlətin qəbul etdiyi vergi sistemində mövcud olan və cəmiyyət tərəfindən dəstəklənməyən ziddiyyətli halların aradan qaldırılması sistem daxilində aparılan islahatların əsas məqsədlərindən biridir. Son illərdə dünya ölkələrinin iqtisadiyyatında və o cümlədən onların vergi sistemlərində ciddi dəyişikliklər baş vermişdir. Vergi sistemindəki dəyişikliklər, əsasən, vergilərin hesablanması, ödənilməsi qaydalarında və vergi dərəcələrindəki dəyişikliklərlə bağlı olmuşdur. Vergi sistemində gedən yenidənqurma işləri təkcə mal və xidmət istehsalının şəraitinə deyil, həm də əhalinin gəlirlərinə təsir edir. Görülmüş işlərin ictimai qiymətləndirilməsi isə əsasən sosioloji tədqiqatlar vasitəsilə həyata keçirilir. Bu sahədə aparılan tədqiqatlarda sadə insanlarla yanaşı, vergi münasibətlərinin iştirakçıları olan auditor və məsləhət xidməti şirkətlərinin mütəxəssisləri də iştirak edirlər. Tədqiqatların aparılmasında, əsasən, aşağıdakılara diqqət yetirilir:

- vergi sahəsində aparılan islahatların məsuliyyətin gücləndirilməsinə təsirinin qiymətləndirilməsinə;
- vergi sistemindəki islahatların gözlənilən səmərəliliyinə və islahatlara dair təkliflərin verilməsinə;
- vergi islahatlarının inkişaf istiqamətlərinə və onların cəmiyyətin sosial təminat səviyyəsi ilə əlaqələndirilməsinə.

Vergi islahatlarının aparılması prosesində əsas alət və elementlərdən biri vergi qanunvericiliyi hesab edilir. Çünki qanunvericilikdə aydın olmayan məqamlar və ziddiyyətlər vergi sistemində islahatların aparılmasına maneçilik yaradır. Əksər ekspertlərin fikrincə, vergi mexanizminin fəaliyyətində meydana çıxan problemlər vergi sisteminin səmərəli fəaliyyətinə maneçilik törətməklə yanaşı, həm də sistemdə islahatların aparılması zamanı obyektiv qərarların qəbul olunmasına mənfi təsir göstərir. Ekspert qiymətləndirilməsi zamanı mövcud vergi sistemi barədə alınmış məlumatlarda sistemdə aparılan islahatlar barədə fərqli fikirlərə də rast gəlinir. Bu sahədə vahid fikrin olmaması aparılan islahatların düzgün istiqamətləndirilməməsindən və ya onların səmərəsinin az olmasından xəbər verir. Ekspert qiymətləndirilmələrində iştirak edənlərin əksəriyyəti belə hesab edir ki, vergitutma mexanizminin daha səmərəli fəaliyyətinin təşkilində dövlətin rolu çox böyükdür. Bu isə onu göstərir ki, vergilərin cəmiyyətdəki sosial rolu insanlar tərəfindən hələ də kifayət qədər başa düşülmür.

Ekspertlərə görə, vergi sisteminin təkmilləşdirilməsinin əsas faktorlarından biri vergidən yayınmaya qarşı mübarizənin gücləndirilməsidir. Bu baxımdan, vergi qanunvericiliyinin nəzarətlə bağlı normalarında edilməli olan dəyişiklikləri ekspertlərin bir qismi vergi öhdəliklərinin aşağı salınmasında, bir qismi hökumət tərəfindən nəzarətin gücləndirilməsində, digərləri isə tətbiq olunan maliyyə sanksiyalarının artırılmasında görür.

Beləliklə, ekspertlərin vergi sistemində aparılan islahatların qiymətləndirilməsi ilə bağlı fikirlərində vergi qanunvericiliyinin rolunun xüsusi vurğulanması onu təsdiq edir ki, qanunvericilik təkcə fiskal problemlərin deyil, həm də sosial əhəmiyyətli məsələlərin həllində böyük rol oynayır. Bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, mütəxəssislərin rəyinə görə, vergi islahatları aparılarkən maliyyə sanksiyalarının sərtləşdirilməsi qarşıda duran məsələlərin həllində çətinliklər yaratmaqla vergi ödəyicilərini vergidən yayınmanın daha gizli yollarını axtarmağa vadar edə bilər. Buna görə də vergi sistemində islahatların aparılmasında ən optimal və məqsədyönlü tədbirlər vergi qanunvericiliyinin təkmilləşdirilməsi və vergilərin tutulması mexanizmində müasir üsulların tətbiqi ilə bağlı olmalıdır.

Qeyd olunanlarla yanaşı, vergi islahatlarının aparılması zamanı daha səmərəli tədbirlərin görülməsi üçün ekspertlər problemin həllinin başqa variantını da təklif edirlər. Bunlara aşağıdakıları aid etmək olar:

- dövlət xərclərinin şəffaflığının və səmərəliliyinin artırılması, vergilərin xərclənməsi barədə məlumatlandırmanı nəzərdə tutan sistemin yaradılması (xüsusən də regionlar və bələdiyyələr səviyyəsində);
- əhalinin orta gəlirlərinin artırılması;
- vergidən yayınmağa meyilli olan sahibkarların rüşvətə cəlb edilməsinin qarşısını almaq üçün korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi;
- vergilərin ödənilməsi prosedurlarının sadələşdirilməsi;
- iri vergi ödəyicilərinə vergi nəzarətinin gücləndirilməsi;
- müxtəlif sahələri təmsil edən şirkətlər üçün xüsusi vergi rejimlərinin tətbiq olunması.

Vergi güzəştlərindən istifadə olunmanın müasir mərhələsində bu cür tədbirlər cəmiyyət tərəfindən daha çox dəstəklənir. Çünki bu, bütün ödəyicilərdən vergilərin bərabər məbləğdə tutulmasını nəzərdə tutan sistemin tətbiqi ilə müqayisədə daha səmərəli ola bilər.

Aparılan sosial tədqiqatların nəticələrini və vergi sistemlərində aparılan islahatların aktuallığını, onların ətrafında gedən diskussiyaları nəzərə alaraq, sistem daxilində aşağıdakı dəyişikliklərin də həyata keçirilməsi zəruri hesab edilir:

- vergi sisteminin idarəedici orqanlarının fəaliyyətini qiymətləndirməyə imkan verən kriteriyalarda məqsədyönlü dəyişikliklərin edilməsi;
- vergi qanunvericiliyinin adi vergi ödəyicilərinin başa düşəcəyi səviyyəyə qədər maksimum sadələşdirilməsi.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Yoxlama zamanı sənədlərin təqdim edilməsi

***Vergi yoxlamaları həyata keçirilən zaman vergi orqanlarının tələbi ilə vergi ödəyicisi tərəfindən müvafiq sənədlər təqdim edilmədikdə ödəyici barəsində hansı tədbirlər görülür?***

Vergi Məcəlləsinin (VM) 16.1.6-cı maddəsinə əsasən, VM ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan məlumatları və sənədləri, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda, özünün və filiallarının elektron daşıyıcılarında olan məlumatlara birbaşa və ya məsafədən çıxış imkanı yaratmaqla həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək vergi ödəyicisinin vəzifəsidir.

Vergi orqanları qanunla müəyyən edilmiş hallarda, xüsusən də kameral və səyyar vergi yoxlamaları zamanı vergi ödəyicisindən zəruri sənədləri tələb etmək hüququna malikdir. VM-in 23.1.2-ci maddəsinə əsasən, vergi ödəyicilərində bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatları, smetaları, nağd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlamaq, habelə yoxlamaların keçirilməsi zamanı yoxlamaya aid olan məsələlərlə bağlı vergi ödəyicilərindən və ya onun vəzifəli şəxslərindən lazımi izahatlar, arayışlar və məlumat almaq, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda elektron auditin məqsədləri üçün vergi ödəyicisinin və onun filiallarının elektron daşıyıcılarındakı məlumatlarının verilməsini, həmin məlumatlara birbaşa və ya məsafədən çıxış imkanının yaradılmasını tələb etmək vergi orqanlarının hüququdur.

Kameral və səyyar vergi yoxlamaları zamanı vergi orqanlarının qeyd olunan hüquqlarının həyata keçirilməsi ilə bağlı müddəalar VM-in 37-ci və 42-ci maddələrində öz əksini tapmışdır. Məcəllənin 37.3-cü və 42.1-ci maddələrinə əsasən, kameral yoxlama aparmaq üçün vergi ödəyicisindən təqdim olunmuş bəyannamə ilə bağlı sənədlərdəki məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə vergi orqanı vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat tələb edə bilər. Səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxsi bu Məcəllənin 38.1-ci maddəsinə uyğun olaraq vergi ödəyicisinə göndərdiyi bildirişlə birlikdə yoxlama üçün zəruri olan sənədləri, habelə elektron faylları vergi ödəyicisindən bu Məcəllə ilə müəyyən edilmiş qaydada tələb edə bilər.

Vergi ödəyicisi VM-in 37.3-cü maddəsində qeyd olunan hallarda kameral vergi yoxlaması zamanı tələb olunan sənədləri üzrlü əsas olmadan təqdim etmədikdə vergi orqanları vergiləri VM-in 67-ci maddəsinə müvafiq olaraq hesablaya bilərlər. Bundan əlavə, səyyar vergi yoxlaması zamanı vergi orqanının vəzifəli şəxsinə tələb olunan sənədlər vergi ödəyicisi tərəfindən 15 iş günü müddətində təqdim edilmədikdə və ya həmin sənədlərin və ya elektron faylların onda olmaması vergi ödəyicisi tərəfindən bildirildikdə akt tərtib edilərək yoxlamanı həyata keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanır. O da qeyd olunmalıdır ki, tələb olunan sənədləri və ya surətlərini səyyar vergi yoxlamasının keçirildiyi müddətdə digər mənbələrdən əldə etmək mümkün olmadıqda, həmin akta əsasən vergi orqanı ödənilməli olan vergi məbləğlərini VM-in 67-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada müəyyən edə bilər.

VM-in 57.3-cü maddəsinə əsasən, 23.1.2-ci maddədə göstərilən sənədlərin (o cümlədən elektron formatda məlumatların) müəyyən edilmiş müddətlərdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsinə görə vergi ödəyicisinə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

# Daşınmaz əmlakın qiymətləndirilməsi layihəsi

*Layihənin məqsədi qiymətləndirmənin milli səviyyədə vahid mərkəzdən, rəsmi, yığcam və mütərəqqi qaydada həyata keçirilməsini təmin etməkdir. Əmlak Məsələləri Dövlət Komitəsi layihənin icrasında məsul qurum kimi ilk dəfə milli səviyyədə daşınmaz əmlakların qiymətləndirilməsinin təşkilinə və qiymətləndirmə fəaliyyətinə nəzarəti həyata keçirəcək.*

Layihə Dünya Bankının dəstəyi ilə icra olunan «Daşınmaz əmlakın qeydiyyatı» layihəsi çərçivəsində həyata keçirilir. Bu sahədə beynəlxalq təcrübə və standartlar öyrənilib, layihənin icrasına beynəlxalq ekspertlər cəlb edilib.

İlk olaraq Sumqayıt şəhərində həyata keçirilən layihənin ictimai təqdimatında çıxış edən Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəis müavini Seymur Əliyev bildirib ki, kütləvi qiymətləndirmə sistemi elektron qaydada birdəfəyə böyük sayda daşınmaz əmlakların sosial-iqtisadi parametrlər və hüquqi əməliyyatlar baxımından qiymətləndirilməsidir: «Bu proses zamanı daşınmaz əmlak bazarının təhlili, məlumatların toplanması həyata keçirilir, keyfiyyətə nəzarət və dəyərin müdafiəsi təmin edilir. Bununla yanaşı, daşınmaz əmlak bazarında məlumat bankı hazırlanır və etibarlılığı yoxlanılır. Bazar məlumatlarının reyestrindən istifadə etməklə, zona dəyər xəritələri hazırlanır. Sistemin əsas üstünlüyü əlavə maliyyə resursları və vaxt tələb etmədən məlumat bankındakı rəqəmlərdən istifadə etməklə çoxlu sayda daşınmaz əmlakı qiymətləndirməyə imkan yaratmasıdır».

Sumqayıt şəhərində pilot layihənin icrası nəticəsində 80 min daşınmaz əmlak qiymətləndirilib. Daşınmaz əmlakların bazar məlumatlarını özündə əks etdirən «bazar məlumatları reyestri» sistemi qurulub, kütləvi və fərdi qiymətləndirməni həyata keçirən müvafiq sistem və daşınmaz əmlak bazarına dair ictimai portal yaradılıb.

Respublikanın bütün bölgələrində həyata keçirilməsi nəzərdə tutulan layihə dövlətin ölkədə daşınmaz əmlaka münasibətdə öz sosial-iqtisadi siyasətinin və məqsədlərinin daha dəqiq formalaşdırılmasına dəstək verəcəkdir. Daşınmaz əmlakların rəsmi bazar dəyərinin təyin olunması sosial subsidiyalar, ipoteka, sığorta, daşınmaz əmlaka investisiyaların qoyuluşu, alqı-satqı əməliyyatları, əmlak bazarı üzrə dövlət statistikalarının aparılması kimi sahələrdə mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, daşınmaz əmlakın iqtisadi və digər parametrlərinə əsasən müfəssəl qiymətləndirilməsi çox önəmlidir.

**AYTƏN**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Ötən il Azərbaycana **2 milyon 300 minə** yaxın turist gəlib. Hesablamaya görə, il ərzində turizm xidmətlərindən ölkəmizin maliyyə dövriyyəsinə ən azı **1 milyard manat** həcmində vəsait daxil olub.
- Bu ilin mart ayı ərzində vətəndaşlara fərdi məlumatlar üzrə **6 mindən** artıq elektron arayış verilib
- Dövlət Neft Fondundan verilən məlumata görə, cari il yanvarın 1-dən aprelin 1-dək «Azəri-Çıraq-Günəşli» layihəsi çərçivəsində Fonda **2.065 milyon dollar** vəsait daxil olub.

# İstehlakçı hüquqları ilə bağlı qanunvericilik bazası təkmilləşdirilir

## *Kassa çeklərinin əldə edilməsi istehlakçı hüquqlarının bərpasında mühüm əhəmiyyət kəsb edir*

Ölkəmizdə istehlakçı hüquqlarının pozulması hallarının aradan qaldırılması üçün müvafiq tədbirlər görülsə də, bu sahədəki problemlər kifayət qədərdir. Xüsusən malların dəyişdirilməsi və ya geri qaytarılması zamanı alıcı ilə satıcı arasında yaranan mübahisələr, bir qayda olaraq, istehlakçıların hüquqlarının pozulması ilə nəticələnir...

Ölkə qanunvericiliyində isə istehlakçı hüquqlarının qorunması, onların hüquq və mənafelərinin müdafiəsi ilə bağlı xüsusi müddəalar var və son dövrlərdə bu istiqamətdə qanunvericilik bir qədər də təkmilləşdirilmişdir. Milli Məclisin qərarı ilə İnzibati Xətalar Məcəlləsində, Vergi Məcəlləsində, Mülki Məcəllədə bir sıra yeniliklər edilmişdir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin və «İstehlakçı hüquqlarının müdafiəsi haqqında» Qanunun müvafiq maddələrinə edilmiş əlavələrə görə, alıcılara heç bir şərt olmadan aldığı malı başqa ölçülü, formalı, qabaritli, fasonlu, rəngli və ya quruluşlu oxşar mala dəyişmək imkanı yaradılmalıdır. İstehlakçı qeyri-ərzaq malını ona satıldığı andan 14 gün ərzində geri qaytara bilər. Əgər satıcıda dəyişdirilmək üçün zəruri mal yoxdursa, istehlakçı həmin malı satıcıya qaytara və ödədiyi pulu tam məbləğdə geri tələb edə bilər.

Bunlardan əlavə, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında» və «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» qanunların qüvvəyə minməsi nəticəsində istehlakçı hüquqlarının pozulmasına görə cəzalar bir qədər də sərtləşdirilib. İstehlakçıların hüquqlarını pozan və vergidən yayınmağa cəhd göstərən işbazlar bundan sonra daha böyük cərimələrə və cəzalara məruz qalmalı olacaqlar.




Ancaq istehlakçılar unutmamalıdırlar ki, alınan istənilən mala görə nəzarət-kassa aparatından çıxarılmış və üzərində aşağıdakı məlumatlar olan çeki mütləq əldə etməlidirlər:

- VÖEN;
- vergi ödəyicisinin adı;
- çekin vurulmasının tarixi və saatı;
- obyektin adı, yerləşdiyi ünvan;
- malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidin qiyməti və yekun məbləğ;
- gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi;
- nəzarət-kassa aparatının markası və zavod nömrəsi;
- nəzarət-kassa aparatının fiskal rejiminin nişanı (əlaməti).

Üzərində bu məlumatlar olan çek malın haradan alındığı barədə sübut rolunu oynayır.

Satıcılar istehlakçıya mal satarkən onlara qəbz, kassa çeki və ya digər yazılı sənəd verməyə borcludurlar. Vergi Məcəlləsinin 58-ci maddəsinə əsasən, nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına görə vergi ödəyicisinə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat;
- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 800 manat;
- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Nağd pul hesablaşmalarının aparılması qaydaları dedikdə isə buraya aşağıdakılar daxildir:

- nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən (nəzarət-kassa aparatları quraşdırılmadan, qanunvericiliklə müəyyən edilmiş formalara uyğun ciddi hesabat blankları olmadan və ya nağd ödənilmiş məbləği mədaxil etmədən) aparılan hesablaşmalar;
- vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə;
- qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blanklarından istifadə etməmək və ya müəyyən olunmuş qaydada təsdiq olunmuş formalara uyğun olmayan ciddi hesabat blanklarından istifadə;
- əhali ilə pul hesablaşmalarının aparılmasına, alıcıya təqdim edilməli olan çekin, bankların valyuta mübadilə şöbələri tərəfindən müştəriyə təqdim edilməli olan bank çıxarışlarının və ya digər ciddi hesabat blanklarının verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsi;
- nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulması.

İnzibati Xətalar Məcəlləsinin 228.0.13-cü maddəsinə əsasən, qanunvericilikdə nəzərdə tutulan hüquqlarla müqayisədə istehlakçının hüquqlarını məhdudlaşdıran şərtlərin müqavilələrə daxil edilməsi inzibati xəta tərkibi yaradır və istehlakçıların hüquqlarının pozulması kimi qiymətləndirilir. Bu cür hərəkətlərə yol verən vəzifəli şəxslərə 1500 manatdan 2000 manatadək, hüquqi şəxslərə isə 4000 manatdan 5000 manatadək cərimə tətbiq edilməsi nəzərdə tutulur.

Bu məcəllənin 231-ci maddəsinə görə («İstehlakçıları aldatma») malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair istehlakçıların aldadılması inzibati xəta hesab edilir. Bu cür inzibati xətanı törədən fiziki şəxslərə 600 manat, vəzifəli şəxslərə 1000 manat, hüquqi şəxslərə isə 3000 manat cərimə sanksiyası tətbiq edilir.

Qanunvericiliyə görə, istehlakçıların mal (iş, xidmət) haqqında məlumat almaq hüququnun pozulmasına, yəni istehlakçıya satılan mal (iş, xidmət) barəsində qanunla müəyyən edilmiş zəruri məlumatların verilməməsinə görə təqsirli vəzifəli şəxslərin 200 manat, hüquqi şəxslərin isə 400 manat cərimə edilməsi nəzərdə tutulur.

«Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunla bu məcəllənin 200-cü maddəsində cəzalar da sərtləşdirilib. İstehlakçıları aldatma, yəni malsatan və ya əhaliyə xidmət göstərən təşkilatlarda, həmçinin ticarət (xidmət) sahəsində fərdi sahibkar qismində qeydə alınmış fiziki şəxslər tərəfindən malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, habelə istehlak xüsusiyyəti və ya keyfiyyətinə dair istehlakçıları xeyli miqdarda (40 manatdan 500 manatadək) aldatma 3000 manatdan 5000 manatadək cərimə və ya 180 saatdan 240 saatadək ictimai işlərlə cəzalandırılır. Eyni əməllər qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrar törədildikdə və külli miqdarda (500 manatdan yuxarı) ziyan vurmaqla törədildikdə 5000 manatdan 7000 manatadək cərimə və ya üç ilədək müddətə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması nəzərdə tutulur.

Bilə-bilə aşağı keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya satışı, onların keyfiyyətsiz olmasının gizlədilməsi zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda, bu hallara yol verən təsərrüfat subyekti 7000 manatdan 9000 manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 200.4-cü maddəsinə əsasən, eyni əməllər ehtiyatsızlıqdan zərər çəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda təqsirli şəxslərə 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası verilir.

**Rəşad SADIQOV**

# Pensiyaların ödənilməsi ilə bağlı yenilik gözlənilir

Pensiya təminatı sistemi dövlətin həyata keçirdiyi sosial müdafiə siyasətinin ən mühüm və əsas istiqamətlərindəndir.

Azərbaycan Respublikasının ərazisində dövlət pensiya təminatı ilə yanaşı, müxtəlif ictimai və şəxsi pensiya təminatı sistemləri də mövcud ola bilər. Bu sistemlərin fəaliyyəti də müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

## *Vətəndaş pensiyaya çıxmazdan öncə vəfat edərsə, pensiyasının yığım hissəsində toplanan vəsait onun varislərinə veriləcək*

Respublika ərazisində daimi yaşayan və pensiya təminatı üçün tələb olunan iş stajının üçdə ikisini Azərbaycan Respublikasının ərazisində toplayan digər dövlətlərin vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin də pensiya təminatı hüququ vardır. Bu halda keçmiş SSRİ ərazisində 1992-ci il yanvarın 1-dək olan iş müddəti tam nəzərə alınır.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında qarşıya qoyulmuş hədəflər bütövlükdə sosial sahədə, o cümlədən vətəndaşların pensiya təminatı sahəsində əldə olunmuş nailiyyətlərə söykənməklə yeni perspektivlərin müəyyənləşdirilməsinə və qabaqcıl beynəlxalq təcrübəyə uyğun dəyişikliklər strategiyasının həyata keçirilməsinə əlverişli zəmin yaradır.

«2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası» əhatə etdiyi dövrdə pensiya təminatı sahəsində dövlət siyasətinin əsaslarını müəyyənləşdirir. Nəzərdə tutulan islahatların bir hissəsi olaraq «Vətəndaşların pensiya təminatı haqqında» Qanunda dəyişiklik edilməsi gözlənilir. Dəyişikliyə görə, vətəndaş pensiyaya çıxmazdan öncə vəfat edərsə, pensiyasının yığım hissəsində toplanan vəsait onun varislərinə veriləcək.

Bu yeniliyin tətbiqi «Əmək pensiyaları haqqında» Qanuna 2015-ci ilin sonunadək edilməsi gözlənilən dəyişikliklə mümkün olacaq.

Hazırda Azərbaycan qanunvericiliyinə görə əmək pensiyası üç komponentdən - baza hissəsi, sığorta hissəsi və yığım hissəsindən ibarətdir. Baza hissəsi dövlətin müəyyən etdiyi, sığorta hissəsi fərdin maaşına görə tutulan puldur. Yığım hissəsi isə hələ tam fəaliyyət göstərmir. Bu il qanuna ediləcək dəyişikliklə yığım hissəsinin də aktiv hala gətirilməsi planlaşdırılır.

**FƏXRİYYƏ**

# Nağdsız hesablaşmalarla bağlı tədbirlər görülür

Mərkəzi Bank (MB) ölkədə nağdsız hesablaşmaların həcminin artırılması və nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə maarifləndirici tədbirlərə başlayıb. Əhalidə elektron ödəniş alətləri və xidmətlərindən istifadə vərdişlərinin formalaşdırılması məqsədi ilə təhsil müəssisələrində «Nağdsız hesablaşmalar» mövzusunda seminarların keçirilməsi nəzərdə tutulur. MB-nin Milli ödəniş sisteminin inkişafı və nəzarəti şöbəsinin əməkdaşı Ramil Mahmudovun sözlərinə görə, layihə əhalinin ödəniş sistemlərinin mövcud vəziyyəti, nağdsız ödənişlərin üstünlükləri barədə məlumatlılığını və bu istiqamətdə təbliğat-təşviqat işlərini artıracaq.

MB rəsmisi bildirib ki, ölkədə bütün ticarət məntəqələrinin nağd puldan nağdsız ödəmələrə keçməsini təmin etmək, əhalinin elektron ödəniş xidmətlərindən istifadə imkanlarını artırmaq məqsədilə hazırlanan yeni proqram üzərində işlər yekunlaşıb. Proqramda müasir elektron ödəniş alətləri və bank texnologiyalarından istifadənin genişləndirilməsi, elektron ticarətin inkişafının sürətləndirilməsi, nağdsız dövriyyənin xüsusi çəkisinin artırılması, ödəniş sistemləri və hesablaşmalar sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və təsərrüfat subyektlərinin, geniş əhali kütləsinin elektron ödəniş xidmətlərindən aktiv istifadəyə cəlb edilməsi istiqamətində bir sıra mühüm tədbirlər nəzərdə tutulub.

Sənəddə nağdsız ödənişlər sisteminin inkişafı, nağdsız cəmiyyətin qurulması ilə bağlı stimullaşdırıcı tədbirlərin görülməsinə dair müddəalar da öz əksini tapıb. Əhalinin və ticarət mərkəzlərinin nağdsız ödənişlərə marağını artırmaq üçün stimullaşdırıcı addımlar kimi POS-terminallardan istifadə zamanı güzəştlər, dəstəkləyici tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Təkliflərdə nağd ödənişlərin məhdudlaşdırılması ilə bağlı tədbirlərin gücləndirilməsinə də yer verilib. Burada hətta inzibati metodların tətbiqi də gündəlikdədir. Məqsəd bütün idarə, təşkilat və müəssisələrdə maaşların nağd formada verilməsinin qarşısının tamamilə alınması, ödənilən vəsaitlərin kartlara köçürülməsidir.

«Elektron hökumət» layihəsi çərçivəsində dövlət orqanları tərəfindən göstərilən bir sıra elektron xidmətlər üçün nəzərdə tutulan ödənişlərin nağdsız ödəniş alətləri vasitəsilə həyata keçirilməsinin genişləndirilməsi də aktual məsələlər sırasındadır. Vergi, rüsum və digər büdcə ödənişlərinin Milli Ödəniş Sisteminin infrastrukturu vasitəsilə qəbul edilməsi, banklar tərəfindən göstərilən elektron xidmətlərin çeşidinin artırılması, bank-müştəri münasibətlərinin elektronlaşdırılması, kart infrastrukturunun genişləndirilməsi də diqqət mərkəzindədir. «E-hökumət»lə bağlı yeni proqrama uyğun olaraq, «Hökumət ödənişləri portalı» vasitəsilə nağdsız ödənişlərdən istifadənin genişləndirilməsi, dövlət orqanları tərəfindən göstərilən xidmətlərə görə rüsumların real vaxt rejimində onlayn qəbulu, büdcə ödənişlərinin aparılması prosesinin sadələşdirilməsi, kommunal və rabitə xidmətləri üzrə ödənişlərin toplanılması, bank və digər maliyyə qurumları arasında sağlam rəqabət mühitinin təmin edilməsi, «ASAN ödəniş» şəbəkəsinin genişləndirilməsi, bazarda mobil rabitə ödəmə qurumlarının sayının artırılması, digər ödəniş vasitələrinin cəlb olunması həyata keçiriləcək. «Azərpoçt» MMC tərəfindən maliyyə xidmətləri göstərilməsinə və kart infrastrukturuna inteqrasiya olunması ilə regionlarda, xüsusilə kənd yerlərində də əhali üçün elektron ödəniş xidmətlərindən istifadə imkanlarının yaradılması nəzərdə tutulur.

Sənədin əsas müddəalarından biri də ticarət və xidmət sektorunda əməliyyatların həyata keçirilməsində elektron puldan istifadəni reallaşdırmaqdır. Hazırda e-pul emissiyası ilə əlaqədar



banklar, kredit qurumları, iaşə-ticarət, xidmət strukturları və digər təşkilatlarla müzakirələr aparılır, onların təklifləri öyrənilir. Qanun layihəsi qəbul edildikdən sonra prosesin həyata keçirilməsi qaydaları, tərəfdaş təşkilatlarla əməkdaşlığın meyarları, digər tələblər müəyyənləşəcək.

MB-nin mövqeyinə görə, e-pul ölkədə nağdsız ödənişlərin həcminin artmasına təkan verəcək, ödəniş xidmətlərinin daha effektiv və təhlükəsiz təqdim olunmasını, şəffaflığı təmin edəcək.

**ELBRUS**

# Vətəndaşın ümumi məlumat bazası

Hazırda bir sıra dövlət qurumlarında müxtəlif məlumat bazaları mövcuddur və vətəndaşlar müraciət etdikdə bu məlumatlardan istifadə edilir. Amma məlumat sistemlərindəki informasiyalar bəzən tam və dəqiq olmur, müxtəlif dövlət orqanlarının bazalarındakı informasiyalarda fərqlər müşahidə olunur. Bu isə müəyyən uyğunsuzluqların yaranması ilə nəticələnir.

Vətəndaş haqqında məlumatları birmənalı olaraq müəyyən etmək üçün ölkə qanunvericiliyində fərdi identifikasiya nömrəsinin (FİN) tətbiqi nəzərdə tutulub. Müxtəlif dövlət qurumlarının informasiya bazalarındakı məlumatların vahid bir sisteminin yaradılması məqsədi daşıyan FİN nədir və hansı qaydada, kim tərəfindən verilir?

*FİN - konkret bir şəxs barəsində müvafiq məlumatları birmənalı müəyyən etməyə imkan verən vahid və təkrarolunmaz koddur*

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin direktoru Nail Mərdanov bildirib ki, FİN hüquqi termin olaraq Azərbaycan qanunvericiliyində 2006-cı ildən işlənməyə başlayıb: «Əhalinin dövlət reyestri haqqında» Qanunda FİN - konkret bir şəxs barəsində müvafiq məlumatları birmənalı müəyyən etməyə imkan verən vahid və təkrarolunmaz kod kimi göstərilib. 2010-cu ildə qəbul olunmuş «Fərdi məlumatlar haqqında» Qanunda isə FİN haqqında aşağıdakı tərif verilib: «FİN - fərdi identifikasiya nömrəsi - fərdi məlumatların informasiya sistemlərinə barəsində fərdi məlumat daxil edilən şəxsə müəyyən edilmiş qaydada verilən və şəxs barəsində müvafiq məlumatları birmənalı müəyyən etməyə imkan verən (yeddi simvollu hərf və rəqəm kombinasiyasından ibarət olan) vahid təkrarolunmaz (unikal) koddur». Milli informasiya məkanının fərdi məlumatlar üzrə bölümündə paylanmış ayrı-ayrı informasiya sistemlərində eyni subyekt barədə məlumatların uzlaşdırılmasını, bu sahədə pərakəndəliyin və təkrarın qarşısının alınmasını təmin etmək üçün FİN-dən istifadə olunur».

Bu gün FİN Azərbaycan Respublikasının vətəndaşları, habelə ölkədə daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında qanunvericilikdə nəzərdə tutulmuş məlumatlar dövlət reyestrinə daxil edilərkən qanunvericiliklə müəyyən olunmuş qaydada avtomatlaşdırılmış rejimdə həyata keçirilir.

N. Mərdanov onu da qeyd edib ki, Ədliyyə Nazirliyi tərəfindən yaşından asılı olmayaraq hər bir vətəndaşı əhatə edəcək əhalinin dövlət reyestrinin formalaşdırılması üçün xeyli işlər görülüb: «Bu istiqamətdə İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sisteminin əhəmiyyətli rolunu xüsusi qeyd etmək istərdim. Çünki köhnə sovet pasportları yeni milli şəxsiyyət vəsiqələri ilə əvəz olunarkən böyük bir informasiya sistemi qurulmuşdu və bununla 16 yaşdan yuxarı vətəndaşların hər birinə FİN verilməsi öz həllini tapmışdı. Əhalinin dövlət reyestri formalaşmağa başladıqda bu fakt nəzərə alındı».

Qeyd edək ki, 16 yaşdan aşağı vətəndaşlara FİN-lərin verilməsi fərqlidir. Burada verilmiş və verilməkdə olan «Doğum haqqında şəhadətnamə»lər informasiya sisteminə paralel işlənir, FİN verilməsi ilə şəhadətnamənin fiziki bağlılığı yoxdur. İndiyədək verilmiş şəhadətnamələrin böyük hissəsi Ədliyyə Nazirliyi tərəfindən elektronlaşdırılmışdır. Artıq bir sıra dövlət orqanları müvafiq veb-servislər vasitəsilə uyğun informasiya sistemindən ilkin məlumatları əldə edə bilirlər.

Xatırladaq ki, bir sıra dövlət qurumları: Vergilər Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Gömrük Komitəsi, Səhiyyə Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və s. artıq öz sistemlərini FİN-ə uyğunlaşdırıblar.

Hazırda «Azərsu» ASC, Azəristiliktəchizat ASC, «Azəriqaz» İB, «Azərişıq» ASC-nin mülkiyyətində olan informasiya sistemlərində abunəçilərə dair fərdi məlumatların FİN-ə uyğunlaşdırılması istiqamətində müvafiq işlər aparılır.

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycana xarici sərmayə qoyuluşları artır

*Azərbaycan Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına səfərindən sonra bu ölkənin Baş İnvestisiya Mərkəzinin rəhbəri Əbdüllətif Əl-Osman bildirib ki, yaxın zamanlarda ölkəsinin iş adamlarından ibarət nümayəndə heyəti Azərbaycana səfər etmək və biznes sahəsində əlaqələri inkişaf etdirmək üçün qarşılıqlı müzakirələr aparmaq niyyətindədir.*

Qeyd edilmişdir ki, ölkələr arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsində əməkdaşlığın inkişafı baxımından güclü potensial mövcuddur. Bunun üçün birgə investisiya layihələrinin həyata keçirilməsi zəruridir.

İndiyədək müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, ticarət, investisiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə dair ölkələrimiz arasında 10-dan artıq saziş imzalanıb. Bu istiqamətdə konkret addımlar atmaq üçün Azərbaycan hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında yaradılmış Müştərək Komissiyanın fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan bildirilib ki, sənaye, neft-kimya, tikinti, qida, təhsil, ticarət, İKT, maliyyə və s. sahələri təmsil edən 100-dən çox ərəb şirkətinin təmsil olunduğu iş adamlarının iştirakı ilə Bakıda biznes forumunun keçirilməsi planlaşdırılır.

Səudiyyə Ərəbistanının böyük pay sahibi olduğu və əsas qərargahı bu ölkədə yerləşən İslam İnkişaf Bankının (İİB) prezidenti Əhməd Məhəmməd Əli bəyan edib ki, yaxın vaxtlarda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində investisiya layihələrinin maliyyələşdirilməsi nəzərdə tutulur. Bank indiyədək Yevlax-Gəncə magistral yolunun və Samur-Abşeron kanalının Vəlvələçay-Taxtakörpü hissəsinin yenidən qurulması, Abşeronun su təchizatı və kanalizasiya sisteminin bərpa edilərək genişləndirilməsi, Mingəçevir SES-in yenidən qurulması, «Azərbaycanda kənd yerlərinin kompleks inkişafı», Azərbaycanın 6 rayonunda su təchizatı və kanalizasiya proqramı layihələrinə 200 milyon dollardan çox vəsait ayırıb. Bank qarşıdakı mərhələdə bank və maliyyə sektoruna dəstəyini artırmaq niyyətindədir. İİB Azərbaycanda islam bankçılığının yaradılmasında və inkişafında əsas təşəbbüskar və tərəfdaş kimi çıxış edir. Hazırda ölkəmizdə İİB ilə islam maliyyələşməsinə dair əməkdaşlıq edən 8 bank mövcuddur və onların sayının artması gözlənilir. Avropa maliyyə institutlarından fərqli olaraq, islam bankçılığı qlobal maliyyə böhranından çıxa bilib və ənənəvi bankçılıqda geriləmə qeydə alındığı halda, bu sahədə 15% artım qeydə alınıb. Hazırda islam bankçılığı üzrə qlobal aktivlərin həcmi 1 trilyion dollardan çoxdur. Bankın Azərbaycandakı portfeli isə 1,2 milyard dollar təşkil edir. Azərbaycan Beynəlxalq Bankının islam bankçılığı departamentinin direktoru Bəhnam Qurbanzadə bildirib ki, respublikamızda islam bankçılığının inkişafı üçün böyük potensial var, islam bankçılığı haqqında qanunun qəbul olunması isə bu sahənin daha da inkişafına səbəb olacaq.

*Yaxın vaxtlarda İslam İnkişaf Bankı tərəfindən Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində investisiya layihələrinin maliyyələşdirilməsi nəzərdə tutulur*

Onu da qeyd edək ki, 2014-cü il mayın 13-də Ər-Riyadda imzalanmış «Azərbaycan Respublikasının Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında» konvensiya biznes əlaqələrinin inkişafında mühüm rol oynayır və iqtisadi münasibətlərin dinamikası üçün əhəmiyyətli zəmin yaradır.

Ə.Əl-Osman bidirilib ki, bu sənədlər iş adamları arasında əlaqələrin inkişafı baxımından faydalıdır. Kapitalı Səudiyyə Ərəbistanına aid şirkətlər ölkəmizdə uğurla fəaliyyət göstərirlər, bu şirkətlər tərəfindən Azərbaycan iqtisadiyyatına 500 milyon dollara yaxın investisiya yatırılıb.

Ölkələr arasındakı ticarət dövriyyəsi təxminən 25- 30 milyon dollardır. Bu rəqəm indiki halda tərəfləri qane etmir və ticarət dövriyyəsini ən azı 15-20 dəfə artırmaq nəzərdə tutulur.

**E.CƏFƏRLİ**

# «The Holland Times»: «Azərbaycan imkanlar ölkəsidir»

*Bakıda keçiriləcək ilk Avropa Oyunlarına dünya mediası diqqətlə yanaşır, mütəmadi olaraq yazılar dərc olunur.*

Niderland Krallığının «The Holland Times» jurnalının aprel buraxılışında Azərbaycanın Niderlanddakı səfiri Mirhəmzə Əfəndiyevin bu silsilədən sayılacaq «Azərbaycan: imkanlar ölkəsi» başlıqlı geniş müsahibəsi verilib.

Səfir jurnalist Nanda Jagusiakın «Bakı-2015» ilk Avropa Oyunları, Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolu, ölkəmizin iştirak etdiyi neft-qaz layihələri, respublikada innovasiyalar, turizm imkanları barədə suallarını cavablandırıb.

Azərbaycan və Niderland arasında ikitərəfli əlaqələrdən söz açan diplomat bu əməkdaşlığın uğurla inkişaf etdiyini, son illərin qarşılıqlı səfər və görüşlərlə zəngin olduğunu, 2014-cü il yanvarın 23-də Azərbaycan Prezidenti İlham Əliyevin Davos İqtisadi Forumu çərçivəsində Niderland Krallığının Baş naziri Mark Rutte, 2014-cü il martın 24-25-də Haaqa şəhərində keçirilmiş III Nüvə Təhlükəsizliyi sammiti çərçivəsində kral Villem-Aleksandr, eləcə də ölkənin digər rəhbər şəxsləri ilə görüşlər keçirdiyini diqqətə çatdırıb.

Müsahibədə səfirin iki ölkənin xarici işlər nazirlərinin, müxtəlif sahələrdə yüksək vəzifəli şəxslərin qarşılıqlı səfərləri, son illərdə keçirilən çoxsaylı biznes forumlarının nəticəsi olaraq, ölkəmizin qeyri-neft sektoruna yatırılmış birbaşa investisiyaların həcminə görə Niderlandın Türkiyə, Böyük Britaniya və ABŞ-dan sonra dördüncü yerdə olmasına dair fikirləri də yer alıb.

Səfir Nideranlandın 110-a yaxın şirkətinin ölkəmizdə ticarət, xidmət, bank sektoru, vergilər, sığorta, sənaye, nəqliyyat, rabitə və sair sahələrdə fəaliyyət göstərdiyini bildirib və bu il aprelin 23-24-də Maastrixt şəhərində hər iki ölkənin iqtisadiyyat nazirlərinin iştirakı ilə keçiriləcək növbəti biznes-forumdan söz açıb, Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolu, iştirak etdiyi neft-qaz layihələri haqda sualları cavablandırıb.

Müsahibədə «Bakı-2015» Avropa Oyunlarından bəhs edən səfir M.Əfəndiyev son illərdə Azərbaycanın bir sıra dünya əhəmiyyətli tədbirlərə - Beynəlxalq Humanitar və Mədəniyyətlərarası Dialoq forumlarına, dünya çempionatlarına, Qəbələ Beynəlxalq Musiqi Festivalına, «Avroviziya» mahnı müsabiqəsinə müvəffəqiyyətlə ev sahibliyi etdiyini xatırladıb, ilk Avropa Oyunlarının Azərbaycanda keçirilməsinin ölkəmiz üçün tarixi hadisə olduğunu vurğulayıb. O bildirib ki, Avropa Oyunları yeni idman müsabiqəsi formatı olmaqla qitənin müxtəlif idmançılarını bir araya gətirəcək.

Bildirilib ki, bu tədbirə maraq qlobal səviyyədədir və Niderland Milli Olimpiya Komitəsi «Bakı-2015» Avropa Oyunlarına tam ciddi yanaşır. Niderland tərəfi hətta 2019-cu ildə keçirilməsi planlaşdırılan ikinci Avropa Oyunlarına ev sahibliyinə maraq göstərir. Birinci Avropa Oyunlarına hökumət tərəfindən hərtərəfli dəstəyin verildiyini diqqətə çatdıran diplomat Azərbaycanın birinci xanımı, Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın oyunların Əlaqələndirmə Komitəsinin ikinci sessiyasında qeyd etdiyi «Azərbaycanda keçiriləcək birinci Avropa Oyunları Avropa idman hərəkatında yeni dövrün başlanğıcı, Azərbaycan isə bu tarixin ilk səhifəsini yazan ölkə olacaqdır» sözlərini oxucuların diqqətinə çatdırıb.

Azərbaycanda həyata keçirilən innovativ layihələrdən söhbət açan səfir bu sahənin ölkəmiz üçün prioritet istiqamət olduğunu bildirib, «Azerspace-1» peyki, regional innovasiya zonaları və uğurlu nümunə kimi «ASAN xidmət»in fəaliyyətindən danışıb.

*Nideranland Krallığının 110-a yaxın şirkəti ölkəmizdə ticarət, xidmət, bank sektoru, vergilər, sığorta, sənaye, nəqliyyat, rabitə və sair sahələrdə fəaliyyət göstərir*

Azərbaycanın turizm potensialı ilə bağlı jurnalistin sualına cavabında səfir ölkəmizin strateji coğrafi mövqeyi, iqlim və təbii şəraiti, turizm imkanları, «Şahdağ» Qış-Yay Turizm Kompleksi, eləcə də müxtəlif turlardan söz açıb, niderlandlı turistlərin daha çox eko-turizmə maraq göstərdiyini bildirib. O, həmçinin qeyd edib ki, Azərbaycanda keçiriləcək ilk Avropa Oyunları, 2016-cı ildə «Formula-1» yarışına və digər beynəlxalq oyunlara ev sahibliyi etməsi ölkəmizdə turizmin inkişafına əhəmiyyətli təsir göstərəcək.

beynəlxalq panoram

# ABŞ Prezidenti xarici gəlirlərə vergi tətbiqini təklif edib

*Barak Obama xaricdə fəaliyyət göstərən şirkətlər üçün iki yeni vergi növünün tətbiqinə çalışır. O, bununla bağlı təkliflərini Konqresə göndərəcəyini bəyan edib.*



2016-cı maliyyə ili üçün federal büdcə layihəsində şirkətlərin xaricdə saxlanılan kapitallarından 14% məcburi vergi tutulmasını nəzərdə tutan dəyişiklik təklif ediləcək. Qiymətləndirmələrə görə, ABŞ şirkətlərinin hazırda xaricdə saxladığı kapitalının ümumi həcmi 2 trilyon dollara çatır.

Ağ ev xaricdə saxlanılan kapitalın geri qaytarılıb-qaytarılmamasından asılı olmayaraq, verginin ödənilməsini tələb edir. Verginin ödənilməsi ilə bağlı güzəşt yalnız geri qaytarılan kapitalı ABŞ iqtisadiyyatına sərmayə şəklində yatıran müəssisələrə verilə bilər. Yeni vergidən daxil olan vəsaitlərin infrastruktur layihələrinin dəstəklənməsinə - əsasən yolların, körpülərin və digər obyektlərin tikintisinə və təmirinə yönəldilməsi planlaşdırılır. Bildirilir ki, ilkin olaraq birdəfəlik ödənişlər edən korporasiyalar sonradan xarici gəlirlərini ABŞ iqtisadiyyatına əlavə vergi ödəmədən sərmayə kimi qoya biləcəklər. Bu da şirkətləri ölkə daxilində yeni iş yerləri yaratmağa təşviq edəcək.

B.Obama dəfələrlə bəyan edib ki, Konqresin dəstəyi olmadan da offşorlarla mübarizə aparacaq. ABŞ Prezidenti orta təbəqə üçün vergi yükünü azaltmağı, kredit təşkilatları və zəngin vətəndaşlar üçün isə artırmağı təklif edir. Bundan başqa, Ağ ev gələcəkdə xarici kapitala olan vergini 19%-ə qədər yüksəltmək niyyətindədir. Hazırda ABŞ-da korporativ verginin yuxarı dərəcəsi 35%-ə çatır. Bu səbəbdən də bir çox şirkətlər xarici gəlirlərini ölkəyə qaytarmır. ABŞ administrasiyası tərəfindən həyata keçirilən vergi islahatlarının əsas məqsədi vergi sisteminin üstünlüklərini orta sinifdən olan amerikalılara istiqamətləndirməkdir. Ağ evin nümayəndəsi qeyd edib ki, ABŞ şirkətləri xarici gəlirlərinə görə 19%-lik vergini ödəməyə başladıqdan sonra, onlara bu vergilər üzrə ödənişləri aparmaq üçün kreditlər də təqdim olunacaq.

ABŞ Prezidentinin son təklifləri vergi qanunvericiliyində olan boşluqları aradan qaldırmağa hesablanıb. Hazırkı qanunvericilik transmilli korporasiyalara müxtəlif sxemlər tətbiq etməklə xarici gəlirlərini vergilərdən yayındırmağa, eləcə də ABŞ-da əldə olunmuş gəlirlərini xarici offşorlarda gizlətməyə imkan verir.

# Ukrayna hökuməti idxal vergisini artırıb

Ukraynanın Nazirlər kabineti 2015-ci ildə əlavə olaraq 5-10% miqdarında idxal vergisinin tutulmasını qərara almaqla ölkənin tədiyyə balansının sabitləşdirilməsinə yönəlmiş müvəqqəti tədbirlərin tətbiqi barədə beynəlxalq maliyyə təşkilatları ilə məsləhətləşmələri başa çatdırmışdır.

Bundan əlavə, hökumət onkoloji xəstələrin müalicəsi və hemodializ keçirilməsi üçün tibb məmulatlarının idxalını əlavə ödənişdən azad edəcək siyahını təsdiqləyən qərarını açıqlayıb.

Ali Rada hökumətin təklifi ilə keçən il tədiyyə balansının kəskin pisləşməsi ilə əlaqədar 2015-ci ilin sonunadək bütün idxala (kritik idxal məhsulları istisna olmaqla) əlavə olaraq 5-10% miqdarında rüsumun tətbiqini nəzərdə tutan «Ukrayna tədiyyə balansının sabitləşməsi» haqda qanun qəbul edib.

Sənədə əsasən, 10% dərəcə ilə əlavə idxal rüsumu aşağıdakı mallara tətbiq ediləcək:

- hazır ərzaq məhsullarına;
- heyvan və bitki mənşəli məhsullara, piylərə və yağlara;
- spirtli və spirtsiz içkilərə;
- tütün və onun əvəzedicilərinə;
- sirkəyə;
- diri heyvanlara.

Ali Radanın «həyati vacib» hesab etdiyi mallar, o cümlədən enerji daşıyıcılarının əksəriyyəti, bəzi dərmanlar istisna olmaqla, qalan bütün mallar 5% rüsum altına düşəcəklər.

Ali Rada elektrik enerjisini, AES üçün şüalanmayan yanacaq elementlərini, kömürü, koksu, təbii qazı (adi və maye vəziyyətdə), neft və xam neft məhsullarını, benzin və dizel yanacağını əlavə rüsumdan azad edib.

# Latviyada mütərəqqi vergi sisteminin tətbiqi gündəlikdədir

Gələn ildən ölkədə mütərəqqi vergiqoyma sisteminin tətbiq olunacağı gözlənilir. Onun mahiyyəti vergiyə cəlb olunmayan minimum məbləğin əməkhaqqının həcmindən asılı olmasıdır. 500 avrodan az əməkhaqqı alan Latviya sakinlərinə daha yüksək vergi tutulmayan minimum tətbiq olunacaq. Yəni onlar nisbətən az vergi ödəməli olacaq və daha çox gəlir əldə edəcəklər. Əməkhaqqı 1500 avrodan çox olduqda isə vergi qoyulmayan minimum aşağı olacaq və vergilər əməkhaqqının nisbətən çox hissəsindən tutulacaq. 500 və 1500 avro hədləri Maliyyə Nazirliyinin apardığı hesablaşmadan asılı olaraq təshih edilə bilər.

*Xarici ölkələrin təcrübəsi*

# Beynəlxalq təcrübədə fəaliyyətin qiymətləndirilməsi sistemi

*Vergi administrasiyalarının fəaliyyətinin səmərəliliyinin artırılması və müvafiq meyarlar üzrə mütəmadi olaraq təhlillərin aparılması müasir dövrün əsas tələblərindəndir. Bu sahədə beynəlxalq təcrübədə müxtəlif qiymətləndirmə sistemləri («Performance Measurement Systems») tətbiq olunur. Fransanın, İtaliyanın, Avstriyanın, İrlandiyanın təcrübələri fərqli xüsusiyyətlərinə görə diqqəti cəlb edir. Qiymətləndirmə zamanı bir sıra beynəlxalq təşkilatların, o cümlədən Beynəlxalq Valyuta Fondunun təlimatlarından da istifadə olunur.*

**Beynəlxalq Valyuta Fondu**

Beynəlxalq Valyuta Fondunun (BVF) qiymətləndirməsinə əsasən, ümumilikdə vergi orqanının fəaliyyəti qarşısına qoyduğu hədəflərə nail olmağın üsulları baxımdan qiymətləndirilir. Qiymətləndirmə təkcə istifadə olunan metodları ifadə etmir, həmçinin bura vergi orqanının fəaliyyətinin səviyyəsi, fəaliyyət göstəricilərinin əldə olunması və hesabatın verilməsini təmin edir.

BVF-nin vergi administrasiyasının fəaliyyətinin qiymətləndirilməsi metodologiyasında qiymətləndirmə üç səviyyədə - strateji, operativ və fərdi səviyyələrdə aparılır:

1. Strateji səviyyədə ümumi sistemin «səmərəliliyinin» bir sıra göstəriciləri maliyyə fəaliyyəti, ödəyici razılığı, heyətin idarə olunması, heyətin vahidliyi və s. baxımından qiymətləndirilir.

2. Operativ səviyyədə son məhsul əsas ölçü vahidinin obyektidir.

3. Fərdi səviyyədə isə fəaliyyət əvvəlcədən müəyyən olunmuş standart və parametrlərə uyğun aparılır.

**Avstriya təcrübəsi**

Avstriyada fəaliyyətin idarə edilməsi LoS sistemi vasitəsilə həyata keçirilir. LoS (Leistungs Orientierte Steuerung) qarşıya qoyulmuş məqsədlərin müəyyən edilməsindən başlayaraq, yayınmaların aşkar olunması, təhlili və tədbirlərin sənədləşdirilməsinə qədər bütün idarəetmə prosesini əhatə edən müasir idarəetmə informasiya sistemidir.

Avropa İttifaqında fəaliyyətin qiymətləndirilməsi sahəsində ən qabaqcıl təcrübə Avstriyaya aiddir. LoS sistemi fəaliyyətin qiymətləndirilməsi üzrə bütün proseslərin avtomatlaşdırılmasını təmin edir. Orada işçilərin qiymətləndirilməsi komanda formasında həyata keçirilir. Müəyyən olunmuş meyarlar əsasında komandalara verilən (şöbə, idarə, departament və sair) qiymət işçilərin fəaliyyətinin son nəticəsi olaraq nəzərə alınır.

Avstriyada fəaliyyətin qiymətləndirilməsinin əsas xüsusiyyətlərindən biri vergi və gömrük administrasiyasının bütün struktur vahidləri tərəfindən hər ilin sentyabr ayından başlayaraq növbəti il üçün iş planlarının və plan göstəricilərinin müəyyən edilməsi məqsədilə müzakirələrin başlanılmasıdır. Müzakirələr nəticəsində müəyyən olunan iş planlarına və meyarlara dair plan göstəriciləri hər bir struktur ilə vergi administrasiyası arasında bağlanılan illik müqavilədə öz əksini tapır. Vergi orqanının öhdəlikləri həmin müqavilə üzrə müəyyən edilir.



Avstriya təcrübəsində fəaliyyətin qiymətləndirilməsinin əsas göstəriciləri qiymətləndirmə meyarlarının müəyyən edilməsidir. Həmin meyarlara aşağıdakılar aid edilə bilər:

- ♦ elektron şəkildə təqdim olunmuş bəyannamələrin sayı;
- ♦ elektron bəyannamələrdə vergi hesablamaların məbləği;
- ♦ vergi borclarının ödənilməməsi hallarının sayı;
- ♦ idman-mərc oyunları üzrə yoxlamaların sayı;
- ♦ ödənilməmiş vergilər (ödəmə müddəti bitməmiş və ya hələ nəzarətdə olmayan);
- ♦ çağrı mərkəzinə daxil olan telefon zənglərinin sayı;
- ♦ çağrı mərkəzinə daxil olan telefon zəngindən sonra gözləmə müddəti;
- ♦ vergi yoxlamalarının sayı;
- ♦ müraciət etmiş narazı vergi ödəyicilərinin sayı;
- ♦ tamamlanmamış cinayət işlərinin sayı.

Yuxarıda göstərilən meyarlar Avstriya vergi sistemində ildən-ilə dəyişdirilə bilər. Ümumilikdə vergi və gömrük sahəsi üzrə 400-ə qədər qiymətləndirmə meyarı mövcuddur. Həmin meyarların müəyyən edilməsi vergi administrasiyası tərəfindən tələbata uyğun həyata keçirilir. Hər bir vergi orqanında əsas hədəflərə çatmaq üçün nəzərdə tutulan göstəricilər həmin vergi orqanının qiymətləndirmə meyarını əks etdirir.

Avstriya təcrübəsinə əsasən, işçilərin qiymətləndirilməsi, qeyd olunduğu kimi, komandanın əldə etdiyi nəticə əsasında müəyyən edilir. Bununla yanaşı, hər bir vergi strukturunun illik iş planı və plan göstəricisi müəyyən edildikdən sonra strukturun rəhbəri işçilərlə ildə iki dəfə fərdi qaydada görüş təşkil edir. İlin əvvəlində keçirilən görüş həmin il üzrə fəaliyyətin planlaşdırılmasına həsr olunur, növbəti görüş isə fəaliyyətə nəzarət olunması məqsədini daşıyır.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord





*Hind zərb çalğı aləti*

**Yuxarıdan aşağı:** 1.Bir sıra türk xalqlarında, eləcə də Azərbaycanda populyar qadın adı; 2.Saxaranın qərbində səhra; 3.Türk xalqlarının yaşadığı mifik coğrafi ərazi; 4.Qədim Yunanıstanda və Frakiyada mifik şair Orfeyanın adı ilə bağlı, təxminən e.ə. VI əsrə aid mistik dini cərəyan, təlim; 5.Ekran və ya monitorda «qaçan sətir» formasında ekranın aşağısında səhmlərin, simvolların, əməliyyatların həcminin və yerinə yetirildiyi qiymətlərin ardıcıl olaraq davamlı şəkildə təqdim olunması; 6.Tutuquşukimilər dəstəsinə aid fəsilə; 9.Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professorun adı; 13.Gürcüstan ərazisində Böyük Qafqaz sıra dağlarının ən yüksək zirvələrindən biri; 15.İngiltərənin şərqində yerləşən qraflıq; 16.Nizami Gəncəvinin «Xəmsə»sinin ikinci məsnəvisi olan «Xosrov və Şirin» poemasının qəhrəmanlarından biri; 17.Rusiyanın Kalininqrad vilayətində şəhər; 18.Ofislərdə kağızı çox xırda hissələrə kəsən xüsusi avadanlıq; 20.Dinc oturmayan, rahat durmayan, nadinc; 21.Rəşadətli, cəsur, qəhrəman. **Soldan sağa:** 1.Diyircəklərlə hərəkət edən idman avadanlığı; 5.Bircə, yeganə; 7.Riyaziyyat termini. Verilən bir ədədi almaq üçün kökün vurulacağı üst dərəcə; 8.Altay diyarında yayla; 10.Metrik ölçü sistemi qəbul olunanadək işlədilən uzunluq ölçüsü (0,71 metrə bərabərdir); 11.Alman-skandinav rəvayət və dastanlarda aparıcı qəhrəmanlardan biri; 12.Şumer-akkad mifologiyalarında müharibə tanrısı; 14.Qədim türk su və yaşıllıq tanrısı; 19.XVIII əsrin 40-cı illəri - XIX əsrin əvvəllərində Cənubi Azərbaycan ərazisində (indiki İran) mövcud olmuş xanlıq; 21.Fransanın şimal-qərbində şəhər; 22.Məkkəni ziyarət etmiş müsəlmanlara verilən ad; 23.Bazara qısa zaman ərzində böyük həcmdə məhsulun, aktivin daxil olması, dolması nəticəsində qiymətin ciddi şəkildə düşməsi; 24.Hind zərb çalğı aləti; 25.Komi Respublikasının paytaxtı.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Deport; 2.Palitra; 3.Rondo; 4.İquana; 5.Kazan; 6.Teleks; 9.Ələt; 13.Nida; 15.Mezozoy; 16.Mirəli *(Mirqasımov)*; 17.Ağdərə; 18.Klimov; 20.Asiya; 21.Fərid *(Mansurov)*. **Soldan sağa:** 1.Deportivo; 5.Küt; 7.Polonium; 8.AZAL; 10.Retro; 11.Nolinsk; 12.Damno; 14.Atami; 19.İlandağ; 21.Fazil *(Salayev)*; 22.Əşir *(Əşir Bəşir oğlu Fətəliyev)*; 23.Sədrəzəm; 24.İra; 25.Əfəndiyev *(İsmayıl)*.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Sərbəst güləşçilərimiz Dünya Kuboku yarışlarını 3-cü yerdə tamamladı

Amerika Birləşmiş Ştatlarının Los Anceles şəhərində sərbəst güləş üzrə böyüklər arasında Dünya Kuboku yarışları keçirilib. Yarışda Azərbaycanla yanaşı, Rusiya, Kuba, ABŞ, Monqolustan, İran, Belarus və Türkiyə güləşçiləri iştirak ediblər.

Püşkatmanın nəticəsinə əsasən, Azərbaycan güləşçiləri İran, Belarus və Türkiyə komandaları ilə B qrupunda mübarizə aparıblar. A qrupunda isə, Rusiya, Kuba, ABŞ və Monqolustan komandaları qüvvələrini sınayıblar. Güləşçilərimiz əvvəlcə Türkiyə komandasını 7:1, ardınca isə Belarusu 6:2 hesabı ilə məğlub ediblər. Qrupun son görüşündə millimiz İran komandası ilə qarşılaşıb. Gərgin keçən görüşdə uduzan yığmamız qrupu 2-ci sırada tamamlayıb. Beləliklə, komandamız digər qrupun ikincisi Rusiya yığması ilə 3-cü yer uğrunda həlledici görüşə çıxıb. Yekunda 4-4 hesablı bərabərlik qeydə alınsa da, xal hesabı ilə Rusiyadan üstün olan yığmamız Dünya Kubokunu 3-cü sırada tamamlayıb və bürünc medallara sahib olub.

Məlumat üçün bildirək ki, sərbəst güləş üzrə Dünya Kuboku yarışları 1973-cü ildən keçirilir. Azərbaycan idmançıları 2 dəfə (2004 və 2009) Dünya Kubokunun sahibi olublar, 2012-ci ildə ikinci, 2010, 2011 və 2015-ci illərdə isə üçüncü yerdə qərarlaşıblar.




# Velosiped idmanı üzrə Bakı çempionatı

*Yenidənqurma və əsaslı təmir işləri başa çatmaqda olan Respublika Velotrekində uzunmüddətli fasilədən sonra ilk yarış - Bakı şəhər çempionatı keçirilib.*



İdman qurğusunun hazırkı vəziyyətini yoxlamaq üçün nəzərdə tutulan sınaq xarakterli yarışda müxtəlif yaş qrupları üzrə 40-dan artıq velosipedçi iştirak edib.

İki gün davam edən yarış Velotrekin böyük turnirlər üçün hazır olduğunu göstərib. Kompleksdə həm idmançılar, həm də məşqçilər üçün lazımi şərait yaradılıb. Burada ekstremal idman növləri həvəskarları, o cümlədən BMX yarışlarında iştirak edəcək idmançıların hazırlanması üçün «Skate Park», habelə müasir mini futbol meydançası da var. Azərbaycan Velosiped İdmanı Federasiyasının yeni inşa olunmuş inzibati binası da Velotrek ərazisində yerləşir.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə inşa olunan Respublika Velotreki bir vaxtlar yalnız Azərbaycanda deyil, hətta keçmiş SSRİ məkanında ən yaxşı idman qurğularından biri olub.

Təəssüflər olsun ki, 1990-cı illərin əvvəllərində Velotrek baxımsızlıq üzündən bərbad vəziyyətə düşüb və ərazisinin böyük hissəsi zəbt edilib. Dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanda velosiped idmanının inkişafı ilə bağlı tapşırıq və tövsiyələrinə uyğun olaraq, ərazidə geniş tikinti və yenidənqurma işləri aparılıb. İdman qurğusu yaxın vaxtlarda velosipedçilərin istifadəsinə veriləcək.

# Azərbaycanın iki atleti Avropa çempionu adını qazandı

***Azərbaycanın ağırlıqqaldırma üzrə 2 atleti - Valentin Xristov və Boyanka Kostova Tbilisidə keçirilən Avropa çempionatında qızıl medala sahib olub.***

V.Xristov 62 kiloqram çəki dərəcəsində A qrupunda mübarizə aparıb. O, birdən ağırlıq qaldırmada əvvəlcə 133, sonra isə 135 kiloqramı asanlıqla başı üzərinə qaldıraraq turnir cədvəlinə başçılıq edib. Atletimiz təkanla ağırlıq qaldırmada ilk cəhddə 160 kiloqramın öhdəsindən də asanlıqla gəlib. Bu çəki onun üçün həlledici olub. Valentin Xristov həm birdən ağırlıqqaldırma, həm də təkanla ağırlıqqaldırmada birinci olub və fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Azərbaycanın ağırlıqqaldırma üzrə qadın atleti, «Neftçi» idman klubunun yetirməsi Boyanka Kostova da öz çəkisində bütün rəqiblərindən güclü olduğunu sübut edib. O, birdən ağırlıqqaldırmada əvvəlcə 100, sonra 105, daha sonra isə 109 kiloqramı başı üzərinə qaldırıb. Atletimiz bununla həm də iki yeni rekorda imza atıb. Belə ki, 105 kiloqramı başı üzərinə qaldırmaqla o, yeniyetmələr arasında, 109 kiloqramı qaldırmaqla isə böyüklər arasında Avropa üzrə yeni rekord müəyyən edib. Atletimiz təkanla ağırlıqqaldırmada ilk cəhddə 125 kiloqramlıq nəticə ilə öz rekordunu təzələyib. O, 132 və 137 kiloqramı qaldırmaqla daha iki yeni rekorda imza atıb. B.Kostova həm birdən ağırlıqqaldırma, həm də təkanla ağırlıqqaldırmada birinci olub və fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

mozaika

texnologiya

## Smartfonlar qidanı araşdıracaq



İsrail alimlərinin hazırladığı kiçikölçülü kamera real vaxt rejimində üzvi maddələri təhlil edəcək.

Tədqiqatçılar bildiriblər ki, belə kamera smartfonlara quraşdırıla bilər. Onun köməyi ilə istinilən istifadəçi qida məhsullarının kimyəvi tərkibini müəyyənləşdirmək imkanı qazanacaq. Kamera insan gözü ilə görünməyən hiperspektral rejimdə işləyir. Onun vasitəsilə əldə olunacaq informasiya smartfonun ekranında göstəriləcək. Sistem Unispectral adlanır.

Smartfonun bu kamera ilə təchiz olunan işlək prototipinin 2015-ci ilin yayında təqdim ediləcəyi gözlənilir.

araşdırma

## Kompüter oyunları sağlamlığa ziyan vurur

*Oksford Universiteti alimlərinin gəldikləri elmi qənaətə görə, uşağın hansı videooyunlara diqqət yetirməsi deyil, onun bu oyunlara sərf etdiyi vaxt əhəmiyyətlidir.*

Tədqiqatçılar sübuta yetiriblər ki, hiperaktivlik əsasən kompüter oyunlarına gündə üç saatdan çox vaxt sərf edən uşaqlarda müşahidə olunur. Özü də oyunun janrı uşaqların davranışına heç bir təsir göstərmir.

Alimlər 12-13 yaşlı 200 məktəbli arasında sorğu apararaq, müxtəlif çeşidli kompüter oyunlarının təsirini təhlil ediblər. Onlar şagirdlərin müvəffəqiyyət dərəcələrini və davranışlarını ikinci təhlil şkalasında göstəriblər.

Gündə üç saatdan çox videooyunla məşğul olan uşaqlarda hiperaktivlik daha çox müşahidə olunub. Üstəlik, həm döyüş, həm strategiya, həm də təfəkkür oyunları uşaqlara eyni dərəcədə təsir göstərib. Alimlər valideynlərə uşaqların virtual əyləncələrinə məhdudiyyət qoymağı və onlarda real vərdişləri inkişaf etdirən alternativ asudə vaxt təşkil etməyi məsləhət görürlər.

cəmiyyət

## Qlobal su çatışmazlığı



Beynəlxalq ictimaiyyət su təhlükəsizliyi və bundan yaranan geosiyasi gərginlik mühitində «hidrodiplomatiya» yeni erasına daxil olmalıdır. BMT-nin baş katibinin birinci müavini Yan Eliasson belə hesab edir. O, bu yaxınlarda «Həyat suyu» beynəlxalq onillik hərəkatına həsr olunmuş yüksək səviyyədə interaktiv dialoqda iştirak edib. Qeyd edək ki, bu hərəkat 2005-2015-ci illəri əhatə edir.

Yan Eliasson interaktiv dialoqda su çatışmazlığı ilə bağlı xəbərdarlıq edib. O qeyd edib ki, təbii, həmçinin insan tərəfindən artan fəlakətlər, su təmini ilə bağlı sosial-iqtisadi problemlər tez-tez regional və beynəlxalq səviyyədə ixtilaflara səbəb ola bilər.

Y.Eliasson xəbərdarlıq edib ki, «su çatışmazlığı şəxsi faciələrə səbəb olur, həm də tədricən beynəlxalq sülh və təhlükəsizlik üçün təhdidə çevrilir. Bu gün «hidrodiplomatiya»ya tələbat yaranıb: su çatışmazlığı münaqişə mənbəyi əvəzinə əməkdaşlıq üçün stimul olmalıdır».

Problemin ciddiliyini UNESCO-nun son məruzəsi də təsdiqləyir. Burada deyilir ki, su ehtiyatlarından səmərəli istifadə yönündə köklü dəyişikliklər olmasa, 2030-cu ilə su ehtiyatı 40 faiz azalacaq. Ehtimal olunur ki, əsrin ortasında suya tələbat iki dəfə artacaq.

«Həyat suyu» beynəlxalq onillik hərəkatının təşəbbüskarı Tacikistan olub. Tədbirdə çıxış edən bu ölkənin xarici işlər naziri Sirociddin Aslov xatırladıb ki, Tacikistan Mərkəzi Asiyanın su resurslarını 60 faizədək təmin edir, lakin su problemi bu ölkədən də yan ötməyib: «Region əhalisinin yalnız 58,5 faizinə yaxşılaşdırılmış içməli su mənbələrinə malikdir və təxminən 30 faiz təkmilləşdirilmiş qurğu ilə təchiz olunub. Xüsusilə əlverişsiz vəziyyət kənd yerlərində yaranıb. Orada bütün əhalinin ancaq yarısı təhlükəsiz içməli su ilə təmin olunub».

BMT-nin məlumatına görə, 2030-cu ildə qlobal miqyasda içməli su çatışmazlığı planetimizin əhalisinin üçdə ikisini əhatə edəcək.

yeni kəşf

## Sümük «sementi»

Seversk Texnologiya İnstitutunun mütəxəssisləri ən qısa müddətdə insanın sümük toxumasını bərpa etməyə imkan verən nadir maddə işləyib hazırlayıblar. Alimlərin fikrincə, aparılmış eksperimentlər zamanı yeni materialın nadir xassələrə malik olduğu sübuta yetirilib. Maddənin unikallığı bundan ibarətdir ki, o, sümükdə çatlağa və ya sınığa düşdükdə tez bir zamanda sınıq sümük toxumasına çevrilir. Özü də insan orqanizmi materialı yad cisim kimi qəbul edib ayırmır.

Yeni materialın xassələri təbabətdə, stomatologiyada və kosmetologiyada ondan uğurla istifadə etməyə imkan verir. Sibir mütəxəssisləri hesab edirlər ki, yeni maddəni tam əsasla «sümüklər üçün sement» adlandırmaq olar.

Qeyd etmək lazımdır ki, yeni material təsadüfən kəşf edilib. İnstitutun mütəxəssisləri titan protezlərin yaratdığı yaraların sağalmasını sürətləndirən maddə üzərində işləyirlərmiş. Bu məsələnin həlli üçün məhkəmliyinə görə titanla müqayisəyə gələn, lakin tərkibində metal qarışıqlar olmayan material işlənib hazırlanıb. Nadir üzvi məhsulun ən dəyərli xassəsi budur ki, yaralar və zədələr sağaldıqdan sonra da onu insan orqanizmində saxlamaq olar.

Heyvanlar üzərində aparılmış eksperimentlər «sümüklər üçün sement»in çox səmərəli olduğunu sübut edib. Hazırda klinik sınaqlar aparılması üçün lazımi sənədlər rəsmiləşdirilir.



SOS

## Arktikada canlıların 97 faizi məhv ola bilər

*Ekspertlər iqlimlə bağlı tədqiqatlar apararaq müəyyən ediblər ki, Arktikada yaşayan 201 növ heyvan və canlının yaşadığı mühitin qlobal istiləşmə ilə bağlı məruz qalacağı dəyişikliklər nəticəsində bu növlərdən 195-i məhv ola bilər. Alimlər bu məlumatı «Climatic Change» jurnalında dərc ediblər.*

Bir qrup alim ətraf mühitdə iqlim dəyişmələrinin bir neçə modelini yaradıb. Qlobal istiləşmə baş verəcəyi halda, hazırda soyuq Arktikada yaşayan 160 növə yaxın quşun və 40 növ məməlinin məhv olması ehtimalı çox yüksəkdir. Bu rəqəmlər faiz ekvivalentində 97 faizə bərabərdir.

Şimali Kanadada yaşayan karibu maralı, samur, ondatra, Amerika tundrasında yayılmış qu quşu və ağbaş qaz kimi canlıların yaşadığı mühitə daha ciddi ziyan dəyəcəyi gözlənilir.

İqlim üzrə mütəxəssislər bildirirlər ki, onların əldə etdiyi nəticələr dəqiq deyil və bu sahədə işlərin davam etdirilməsi tələb olunur. Lakin bu cür ilkin nəticələr də bütün dünya alimlərinin narahat olması üçün əsas verir.

Alimlər bildirirlər ki, bu mənzərə çox kədərlidir və qlobal iqlim dəyişmələri üzrə yeni araşdırmalar aparılmasını tələb edir. İqlim mütəxəssisləri sübut ediblər ki, qlobal istiləşmə səbəbindən tundradakı göllər kütləvi şəkildə qurumağa başlayıb. Mütəxəssislərin gəldiyi bu nəticə son onilliklərdə peyklər vasitəsilə çəkilmiş fotoşəkillərin təhlilinə əsaslanır.

**Müdriklər deyib ki...**

***«Vətənini sev və onu qoru. Kökü məlum olmayanlar çox yaşamır».***

**F.Q.Uqlov (1904-2008)**

